# 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 231 (8254) CÜMƏ, 18 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





"Bugün müstəqilliyimiz bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir".

İlham ƏLİYEV

# MÜSTƏQİL DÖVLƏTDƏ YAŞAMAQ SƏADƏTİ

## MÜSTƏQİLLİYİN VACİB ŞƏRTLƏRİ

Müstəqil dövləti olmaq, müstəqil dövlətdə yaşamaq səadətdir!

Amma hər xalqa nəsib olmayan səadətdir!

Bunu statistika da təsdiq edir: dünyada beş minədək tayfa, qəbilə, xalq, millət olsa da, yalnız 200-ü özünə dövlət qura bilib!

**Müstəqil yaşamaq üçün ən əvvəl Vətən adlı ərazin, torpağın olmalıdır!**

**Müstəqil yaşamaq üçün yeraltı və yerüstü sərvətlərin, xalqı dolandırmaq üçün lazımi imkan və şəraitin olmalıdır!**

**Bütün bunlarla bahəm vətənpərvər, ağıllı, savadlı, bacarıqlı, dövləti idarə etməyə qadir övladların olmalıdır!**

**Ən nəhayət, müstəqil dövləti qurmağı, idarə etməyi, yüksəltməyi, təlatüm və bəlalardan qorumağı bacaran liderin, rəhbərin olmalı, onun ətrafında yumruq kimi birləşməyin zəruriliyini dərk etməlisən!**

## ƏSL RƏHBƏRSİZ VƏ LİDERSİZ MÜSTƏQİL YAŞAMAQ ÇƏTİNDİR

Tanrı XX əsrin sonlarında bizə ikinci dəfə müstəqil dövlət yaratmaq imkanı qismət edəndə ölkə daxilində nə həqiqi rəhbərimiz var idi, nə hamının qəbul etdiyi liderimiz!

Ona görə də başımıza oyunlar açdılar, müsibətlər gətirdilər!

Gah 20 Yanvar faciəsini törətdilər, gah da erməniyə arxa duraraq torpaqlarımızın işğalına kömək göstərdilər.

Sonra da ölkədə xaos və anarxiya bataqlığı, iqtisadi və siyasi böhran yaradaraq Azərbaycanı yenidən paralamaq, xanlıqlar dövrünə qaytarmaq planını cızdılar.

**Xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə dönən Ulu Öndər Heydər Əliyev düşmənlərimizin bütün planlarını altüst etdi, Azərbaycanı xaos və fəlakət burulğanından qurtardı!**

*Üstəlik, müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirərək müasir Azərbaycan dövlətinin memarı və qurucusu oldu!*

Ardı 4-cü səh.

# Prezident həmsədrləri qəbul etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.



# Prezident yeni prioritetləri elan etdi

## İlham ƏLİYEV: "Əsas vəzifə iqtisadi artımı daha da yüksək rəqəmlərə qaldırmaq və islahatları davam etdirməkdir"

İlham Əliyevin idarəçiliyində diqqətçəkən əsas məqamlardan biri görülən işlər, qazanılan nailiyyətlər, perspektivdə atılacaq addımlar, habelə nöqsanlarla bağlı ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılmasıdır.

Çünki belə hesabatlar geridə qalan müəyyən dövrlər üzrə əldə edilmiş iqtisadi və sosial nəticələrin qiymətləndirilməsi, bu barədə əhaliyə obyektiv məlumatların çatdırılması, o cümlədən problemlər ətrafında müzakirələrin aparılması və onların həlli yollarının müəyyən edilməsi baxımından ən səmərəli vasitədir.

### Dünya miqyasında rekord göstərici

Dövlət başçısının yanında keçirilən iqtisadi müşavirələr bu baxımdan xüsusi əhəmiyyətə malikdir və təsadüfi deyil ki, daim ictimaiyyətin dərin marağına səbəb olur. Oktyabrın 15-də keçirilən növbəti iqtisadi müşavirə də yeni müzakirələrə yol açan aktual məsələlərlə yadda qaldı. "Əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir" deyən Prezident İlham Əliyev ölkənin bundan sonra da inkişaf yolu ilə gedəcəyini bəyan etdi.

Ardı 6-cı səh.

# Azərbaycanda yol tikintisi geniş vüsət alıb

## Prezident İlham Əliyev Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə yol tikintisinin geniş vüsət aldığını bildirən Prezident **İlham ƏLİYEV** dedi:

- Yol tikintisi Azərbaycanda geniş vüsət alıb. Hər il bizdə min kilometr yeni yol çəkilir. Bu il də istisna deyil. Şadam ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında bu sahədə də irəliləyiş var. Keçən dəfə yolların keyfiyyətinə görə biz 34-cü yerdə olmuşuqsa, bu il 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Bu, onu göstərir ki, yol infrastrukturuna qoyulan sərmayə öz səmərəsini verir. Yol tikintisi geniş vüsət alıb və yollar yüksək keyfiyyətlə tikilir. Belə də davam edin. Azərbaycanın bütün yolları bundan sonra da ən yüksək standartlara cavab verməlidir.

Bu ilin investisiya proqramında yolların tikintisi üçün kifayət qədər vəsait ayrılıb. Həm magistral yolların, şəhərlərarası, kəndlərarası və kənd yollarının çəkilişi üçün. Magistral yollara gəldikdə, biz əsas qonşularımızla - üç qonşu ölkə ilə yollarımızın çəkilişini demək olar ki, başa çatdırmışıq. İndi Rusiya sərhədinə qədər yeni yol çəkilir. Bu barədə məlumat verərsiniz. Eyni zamanda, Gürcüstan istiqamətinə - Gəncədən sərhədə qədər ikizolaqlı yolu biz dördzolağa genişləndiririk. Bu layihə haqqında da məlumat verərsiniz. İran sərhədinə qədər yolun bir hissəsinin çəkilişi hələ qalıb, əsas yol çəkilib, məsafə də qısalıb. Bu da çox önəmli layihədir.

Ardı 2-ci səh.

# Davamlı ənənələrin işığı

**Bu yaxınlarda akademik İsa Həbibbəylinin 70 yaşı tamam oldu. Uzun və şərəfli omrün yeni bahar yaşına qədəm qoydu İsa müəllim. Mən bahar deyirəm, çünki İsa Həbəbbəylini yaradıcı ruhu və enerjisi baxımından həmişə bahar təzəliyini əks etdirən ovqat və dinamikada görmüşəm. Bu, onun fərqliliyinin və özəlliyinin ilkin göstəricisidir.**



Onun yubileyi münasibətilə çap olunmuş yazılara nəzər yetirirəm. Yanaşma və baxış spektri çoxcəhətlidir: ölkəmizin ali qanunverici orqanının komitə rəhbəri kimi gördüyü işlər, elmi fəaliyyətinin, ədəbi-publisistik yaradıcılığının təhlili, ictimai xadim, ziyalı kimi yüksək məziyyətləri, şəxsi keyfiyyətləri hər biri bu məqalələrin predmetinə çevrilir. Mənim tanıdığım İsa Həbibbəyli bütün yaxşı sözlərə, dəyərli fikirlərə layiqdir, düşüncəmdə onun işıq heykəli kimi ucalan dəyişməz, sabit obrazı var. Qüdrətli imza kimi yazılarına, alim kimi bəsirətinə, millət vəkili, ziyalı kimi milli dövlətçilik dəyərlərimizə sadiqliyinə hər zaman heyran olduğum İsa Həbibbəyli obrazı...

❖❖❖

Yəqin, dəyərli oxucum, bunu çox müşahidə etmisən: bir ocaqda dünyaya gəlib, eyni atanın-ananın tərbiyəsini görmüş övladlar illər sonra böyüyüb boya-başa çatdıqca hərəsi bir xarakterin sahibi olur, bir niyyətin ardınca gedir və yaşa dolduqca görürsən ki, bioloji doğmalıqdan, atalı-analı günlərin, qayğısız uşaqlıq çağlarının bal kimi şirin xatirələrindən savayı eyni olan, rahatlıqla paylaşa biləcəyin çox az şeylər qalıb arada...

Amma elə insanlar da olur ki, ömrün hansı məqamında rastlaşırsan-rastlaş, beləleri ilə ünsiyyətdən qısa müddət sonra elə bilirsən onlarla bir evdə doğulmusan, bir ananın südünü içmisən, uşaqlığını, məktəb, tələbəlik illərini, iş həyatını, bir sözlə, bütün ömrünü bir yerdə keçirmisən...

İnsanları bir-birinə bu cür doğmalaşdıran onların malik olduqları ortaq dəyərlərdir...

İsa Həbibbəyli ilə tanışlığımız, yaxın ülfətimiz, daha çox 2005-ci ilə, hər ikimizin 3-cü çağırış Azərbaycan Milli Məclisinin deputatı seçildiyimiz zamana təsadüf edir. Yeni Azərbaycan Partiyasının üzvləri, Milli Məclisdə bu partiyanın təmsilçiləri olaraq biz İsa Həbibbəyli ilə əqidə yoldaşıyıq, bir məsləkin daşıyıcılarıyıq, bizim bir-birimizlə yaxın ülfətimiz üçün bu mənsubiyyət duyğusu da kifayət edərdi...

Ardı 6-cı səh.

# Azərbaycanda yol tikintisi geniş vüsət alıb

## Prezident İlham Əliyev Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədrini qəbul edib

*Əvvəli 1-ci səh.*

Bu il, eyni zamanda, şəhərlərarası yolların çəkilişinə və kənd yollarının tikintisinə vəsait nəzərdə tutulub. O cümlədən son dəfə mən sizə tapşırıq verdim ki, Bakı qəsəbələrinin yollarına da diqqət yetirilsin. Bakının həm qəsəbələrarası, həm də qəsəbədaxili yolları təmir olunmalıdır, yeni yollar çəkilməlidir. Bəzi yerlərdə hələ torpaq yollar mövcuddur. Torpaq yollar olmamalıdır. Qəsəbədaxili yollara asfalt vurulmalıdır.

İndi isə məruzə edin, bu günə qədər nə işlər görülüb və ilin sonuna qədər hansı addımlar atılacaq?

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri **Saleh MƏMMƏDOV** dedi:

- Möhtərəm cənab Prezident.

Sizin 2019-cu il yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdiyiniz kimi, bu ilin investisiya proqramında yol tikintisi üçün kifayət qədər vəsait nəzərdə tutulmuşdur. Bu vəsait hesabına 2019-cu ildə Azərbaycanda min kilometrə qədər yeni avtomobil yollarının salınması, təmir olunması, körpülər tikilməsi nəzərdə tutulurdu. Bu gün mən Sizə məruzə edirəm ki, cari ilin doqquz ayı ərzində ölkədə artıq 903,5 kilometr uzunluğunda avtomobil yolları çəkilib və istismara tam hazırdır.

**Prezident İlham ƏLİYEV:** Yəni ilin sonuna qədər min kilometrə çatdırılacaq.

**Saleh MƏMMƏDOV:** İlin sonuna qədər 1122 kilometr olacaq. Çünki Sizin bölgələrə səfərləriniz zamanı orada əhalinin xahişini nəzərə alaraq, əlavə yolların tikintisinə sərəncamlar vermisiniz. Biz artıq bu ilin sonunadək həmin yolların da tikintisini başa çatdıracağıq. Bu yollardan biri Qaxda səfərdə olduğunuz zaman verdiyiniz tapşırığa əsasən M-5 magistral yolundan İlisu kəndinə qədər uzunluğu 33,5 kilometr olan avtomobil yolunun tikintisi artıq başa çatıb, yüksək keyfiyyətlə təhvil veriləcək.

**Prezident İlham ƏLİYEV:** Xınalığa yeni yolun çəkilişi nə yerdədir?

**Saleh MƏMMƏDOV:** Xınalığa çəkilən 31 kilometrlik yeni yolun artıq 10 kilometrlik hissəsinin torpaq yatağı tam hazırdır. Bundan əlavə, Xınalığa gedən yolun başlanğıcı olan, Quba-Qusar yolundan ayrılan asfalt-beton örtüklü 24 kilometrlik Alpan-Susay yolu istismara tam hazırdır. O yol üzərində iki körpü tikilib və tam hazır vəziyyətdədir.

**Prezident İlham ƏLİYEV:** Bir də Qonaqkəndə yolun çəkilişi nəzərdə tutulmuşdu. O kənddən də müraciətlər daxil olmuşdu. Mən Sizə uzunluğu 50 kilometrdən çox olan Qonaqkənd yolunun tikintisini də tapşırmışdım.

**Saleh MƏMMƏDOV:** Bəli, uzunluğu 50,3 kilometrdir.

**Prezident İlham ƏLİYEV:** O nə vaxt təhvil veriləcək?

**Saleh MƏMMƏDOV:** Möhtərəm cənab Prezident, yolun ikiqat asfalt-beton örtüklü 40 kilometrlik hissəsi tam hazırdır. O yolun üzərində artıq 7 körpü tikilmişdir. Sonuncu körpü Vələçay çayının üzərində salınıb. İllər boyu orada körpü olmamışdır. Çay daşanda insanlar günlərlə, həftələrlə gözləməli olurdular. Bu gün 120 metr uzunluğunda, 11 metr enində altı aşırımlı körpü tikilib, istismara tam hazır vəziyyətdədir. Sizin tapşırığınıza əsasən növbəti ilin investisiya proqramında vəsait nəzərdə tutulub. Bu vəsait hesabına yola aşınma qatı da vurulacaq və həmin 50,3 kilometrlik yol istismara tam hazır olacaq.

**Prezident İlham ƏLİYEV:** Magistral yollarla bağlı vəziyyət necədir? Xüsusilə Rusiya sərhədinə gedən yeni yolun çəkilişi nə yerdədir?

**Saleh MƏMMƏDOV:** Möhtərəm cənab Prezident, Sizin tövsiyə və tapşırığınıza əsasən, hələ 2018-ci ildə Bakıdan Rusiya sərhədinə qədər yeni bir yolun çəkilişi qərara alındı. Biz ilkin layihələndirməyə uyğun olaraq, Bakı-Rusiya sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, yəni Zeynalabdin Tağıyev qəsəbəsinin yaxınlığından Rusiya sərhədinə qədər yeni bir yolun çəkilişinə başladıq. Bu gün yeni yolun 45-ci kilometrdən Giləziyədək - 75-ci kilometrə qədər olan hissəsinin asfalt-beton örtüyü ikiqat olmaqla tikinti işləri yerinə yetirilmişdir. Həmin yolun üzərində bir yol qovşağı tikilmişdir. Ümumi götürəndə, Rusiya sərhədindən isə Bakıya tərəf olan istiqamətdə 38 kilometr yol asfaltlanmışdır. Yol yatağı 92 kilometr hissədə tam tikilmişdir. Nəzərə alınmışdır ki, 2020-ci ilin sonuna qədər biz bu yolu istismara təhvil verəcəyik. Sizin tapşırığınıza əsasən o yolda eyni səviyyədə kəsişən heç bir yol qovşağı olmayacaq. Yəni beş yerdə müxtəlif səviyyəli yol qovşağı olacaq ki, yeni yolu rayon mərkəzləri ilə birləşdirsin.

**Prezident İlham ƏLİYEV:** Aydındır. Bəs Gəncə-Gürcüstan sərhədi yolunun dörd zolağa genişləndirilməsi nə yerdədir?

**Saleh MƏMMƏDOV:** Gəncə-Gürcüstan yolunun Qırmızı Körpüyə qədər olan 131 kilometrlik hissəsində işlər davam etdirilir. Bu ilin sonunadək yolun 34 kilometrlik hissəsinə aşınma qatı da daxil olmaqla asfalt-beton örtüyü vurulacaq. Torpaq yatağı üzrə işlərin 72 faizi artıq yerinə yetirilmişdir. Yolun tikintisi altına düşən pay torpaqları bu məqsəd üçün ayrılmış vəsaitdən kompensasiya ödənilməklə alınmışdır. Heç bir maneəmiz yoxdur. Bu yolun başa çatdırılması 2022-ci ilə nəzərdə tutulub. Amma biz Sizə söz veririk ki, həmin yolu 2021-ci ilin sonunadək yüksək keyfiyyətlə təhvil verəcəyik.

**Prezident İlham ƏLİYEV:** Bir də ki, magistral yolların arasında İran sərhədinədək uzanan yol da bizim diqqətimizdədir. Hazırda İran sərhədinə yol Astara şəhərinin içərisindən keçir ki, bu da narahatlıq yaradır. Ona görə mən göstəriş vermişəm ki, Astara rayonunun ərazisindən İran sərhədinə qədər yeni marşrut üzrə yol çəkilsin. Bu istiqamətdə hansı işlər görülür?

**Saleh MƏMMƏDOV:** Cənab Prezident, 2018-ci ildə Astaraya səfəriniz zamanı əhalinin bu məsələ ilə bağlı müraciətindən sonra Siz ilkin olaraq 2 milyon manat vəsait ayırdınız. Hazırda İran sərhədinə qədər yol çəkilmişdir. Astara çayı üzərindəki körpünün tikintisi məsələsi həll olunur. Bu ilin noyabrında İranın yol işçiləri ilə görüş keçiriləcək. Həmin görüşdə memoranduma qol çəkiləcək. Körpü hazır olan kimi biz artıq yolu istifadəyə verəcəyik. Beləliklə, o yol Astara şəhərinin daxilindən çıxarılacaq.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Həmçinin qəsəbədaxili yollara da mütləq fikir vermək lazımdır. Bu yaxınlarda Kürdəxanı qəsəbəsinin yolları demək olar ki, tam həcmdə təmir olunub. Bu gözəl nümunə bütün qəsəbələrdə öz əksini tapmalıdır.

**Saleh MƏMMƏDOV:** Möhtərəm cənab Prezident, Sizin birbaşa göstərişiniz və qayğınız nəticəsində bu il Bakının qəsəbələrində 242 kilometr daxili yollar asfaltlanaraq tam istifadəyə verilib. İndi həmin qəsəbələrin əhalisi çox rahat yollardan istifadə edirlər. Bundan əlavə, ilin sonunadək qəsəbələrdə daha 57 kilometr yolun çəkilişi başa çatdırılacaq. Yəni biz Sizin tövsiyənizlə qəsəbədaxili müasir yolların uzunluğunu bu il təqribən 300 kilometrə çatdıracağıq. Buna da Sizin tərəfinizdən vəsait ayrılmışdır. Biz çalışırıq ki, ayrılmış vəsait hesabına həmin yolların çəkilişini yüksək səviyyədə başa çatdıraq.

**Prezident İlham ƏLİYEV:** İndi gələn ilin investisiya proqramının müzakirəsi gedir. Əlbəttə ki, yol çəkilişi dövlət investisiya proqramında əhəmiyyətli yer tutacaqdır.

# Yuxarı Şirvan kanalının Türyan çayı ilə kəsişməsindəki dükerin mühafizəsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Yuxarı Şirvan kanalının Türyan çayı ilə kəsişməsindəki dükerin yumaya qarşı mühafizəsi üçün barraj-fiksatorun təmir-bərpası"nın başa çatdırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 790 000 (yeddi yüz doxsan min) manat vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2019-cu il*

# Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 fevral tarixli 927 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 fevral tarixli 927 nömrəli Sərəncamına Əlavə - "Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş çoxmənzilli binaların şəhər və rayonlar üzrə bölgüsünə dair siyahı"nın 2-ci hissəsində "Binaların sayı, ədəd" və "Sayı ədəd" sütunlarında "35" rəqəmləri "40" rəqəmləri ilə, "İstismara yararsız liftlərin sayı, ədəd" sütununda "75" rəqəmləri "83" rəqəmləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2019-cu il*

# F.Ə.Qarayevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Faiq Əli oğlu Qarayev 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2019-cu il*

# Azərbaycan və Polşa məxfi məlumatları bölüşəcək



Bir çox ölkələrlə məxfi məlumatların mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında sazişlər imzalayan Azərbaycan hökuməti bu sıraya daha bir sənəd əlavə edir. Bundan sonra Azərbaycan Polşa hökuməti ilə də məxfi məlumatları bölüşəcək.

Bu barədə parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin dünən keçirilən iclasında Milli Məclis Sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov məlumat verib.

Komitə sədri bildirib ki, bu ilin may ayının 31-də Azərbaycanla Polşa arasında mühüm sənədlər imzalanıb. Onlardan biri də məxfi məlumatların mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında sazişdir.

"Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə" qanun layihəsi ratifikasiya olunması üçün Milli Məclisə göndərilib. Ölkəmizin bir çox dövlətlərlə bu tipli sənədlər imzaladığını deyən Ziyafət Əsgərov sazişi hər iki tərəf üçün mühüm əhəmiyyətli sənəd adlandırıb.

Müzakirələr zamanı çıxış edən komitə üzvü Aqil Abbas vurğulayıb ki, hazırda Polşa arxivlərində Azərbaycana aid çoxlu sayda mühüm sənədlər mövcuddur. Onların arasında Böyük Vətən müharibəsi illərində döyüşən, əsir düşən azərbaycanlıların taleyi ilə bağlı məlumatlar var. Bu sazişin imzalanması ilə həmin sənədlərin əldə edilməsi mümkün olacaq.

Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda "Azərbaycan Respublikası Hərbi-Dəniz bayraqları haqqında" və "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuş üçün müzakirəyə çıxarılıb. Komitə sədri Ziyafət Əsgərov qeyd edib ki, dövlət başçısının bu ilin aprel ayında imzaladığı fərmanla "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə" və "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri" təsdiq edilib. Həmin fərmanla Ali Baş Komandanın bayrağının vahid forması müəyyənləşdirilib. Bu səbəbdən də dəyişikliklər edilməsi təklif edilən bu qanunlarda həmin münasibətlərin tənzimlənməsinə ehtiyac qalmır. Yəni təklif edilən dəyişikliklər qeyd edilən səbəblərdən irəli gəlir.

Komitə üzvləri qanun layihəsinin Milli Məclisin plenar iclasına tövsiyə olunmasına müsbət rəy bildirdilər.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ceyhun BAYRAMOV: "Son bir ildə təhsil sahəsində aparılan islahatlar uğurlu nəticələr verib"

Son bir ildə təhsil sahəsində aparılan islahatlar uğurlu nəticələr verib. AZƏRTAC xəbər verir ki, bunu Təhsil naziri Ceyhun Bayramov oktyabrın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) mənzil-qərargahında keçirilən ənənəvi mətbuat konfransında söyləyib.

Cari ildə görülən işlər haqqında məlumat verən nazir qeyd edib ki, dövlət siyasətində təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsinə və yeni şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən çoxsaylı proqramlar, sərəncamlar imzalanıb. 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilir. Nazir bildirib ki, təhsil müəssisələrindən 43-ü sentyabrın 15-dək təhvil verilib. Digər 41 məktəbdə işlər ilin sonuna qədər yekunlaşacaq.

Nazir bildirib ki, təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsi və yenilənməsi sahəsində görülən işlərdən danışarkən mütləq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xüsusi xidmətlərini də qeyd etməliyik. Heydər Əliyev Fondunun xətti ilə 14 yeni məktəb binasının tikintisi, 8 məktəbin əsaslı təmiri həyata keçirilir.

Eyni zamanda, dövlət proqramına uyğun olaraq cari ildə 257 məktəbdə təmir işləri görülüb. Ümumilikdə 2003-2018-ci illər ərzində ölkədə 3200-dən çox yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Nəticədə bir milyondan çox Azərbaycan şagirdinin təlim-təhsil şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb.

Nazir qeyd edib ki, təhsil sahəsində aparılan əməkhaqqı islahatlarını da diqqətdən kənarda qoymamalıyıq. Müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılıb. Nəticədə 150 mindən çox müəllimin dərs yükü 1,5 dəfə, əməkhaqqı isə orta hesabla 2 dəfə artıb. Təhsil sahəsində əməkhaqlarının artırılması sistemli və davamlı xarakter daşıyır. Sentyabrın 1-dən qüvvəyə minən sərəncam nəticəsində müəllimlərin orta aylıq əməkhaqqı təxminən 600 manatı keçib. Bu artımdan sonra ümumtəhsil sistemində çalışan 5 mindən çox müəllimin əməkhaqqı 1000 manatı keçib.

Nazir məlumat verib ki, 2019-2020-ci tədris ilinə dövlət ümumtəhsil müəssisələrinin I-XI sinifləri üçün 322 adda 5 milyon 668 min 865 nüsxə dərslik və metodik vəsait çap edilib, dövlət ümumtəhsil müəssisələrinin IV və VIII sinifləri üçün dərsliklər yeni tədris ilinə məzmun və dizayn baxımından təkmilləşdirilib və əsaslı şəkildə yenilənib.

Dərsliklərin çəkisinin yüngülləşdirilməsi istiqamətində Təhsil Nazirliyi tərəfindən müəyyən işlər görülüb. Ümumtəhsil müəssisələrinin I sinifləri üçün yeni hazırlanan və bəzi məktəblərə pilot istifadəyə veriləcək "Azərbaycan dili" və "Riyaziyyat" dərslikləri biri digərinin davamı olaraq ikihissəli şəkildə tərtib edilib. Bu dərsliklərin I hissəsi birinci yarımil, II hissəsi isə ikinci yarımil üçün nəzərdə tutulub. Əgər bu təcrübə özünü doğruldarsa, gələcəkdə digər irihəcmli dərsliklərin də ikihissəli şəkildə tərtibi məsələsinə baxıla bilər.

Yeni dərsliklərdən biri də dünya səviyyəli "Macmillan" şirkəti tərəfindən I siniflər üçün "İngilis dili (əsas xarici dil)" fənni üzrə tərtib edilən "Happy Campers" adlı dərslik komplektidir.

Hər üç dərslik komplekti ölkənin seçilmiş məktəblərinin pilot siniflərində sınaq istifadəsindədir. Sınaq istifadə bu istiqamətdə həyata keçirilən ilk təcrübədir və nəticələr mütəxəssislər tərəfindən təhlil edildikdən sonra dərsliklər üzərində müvafiq təkmilləşdirmələr aparılacaq və yalnız bundan sonra onlar kütləvi istifadəyə veriləcək.

Təhsil naziri müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində görülən işlərdən də söz açıb. Vurğulayıb ki, həyata keçirilən bütün tədbirlər cəmiyyətdə işə qəbulun obyektivliyinə inam formalaşdırıb və 2019-cu ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb, müraciət edənlərin sayı 55 mini ötüb. Ümumilikdə son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub.

İstedadlı uşaqlarla iş sahəsində görülən tədbirləri vurğulayan Ceyhun Bayramov deyib ki, beynəlxalq olimpiada və bilik yarışlarında Azərbaycan məktəbliləri son beş ildə 4-ü qızıl, 34-ü gümüş və 108-i bürünc olmaqla, ümumilikdə 146 medal qazanıblar.

Tam orta təhsil səviyyəsində təmayülləşmənin əhatə dairəsi genişləndirilib və 2 min 140 sinifdə 47 min 930 şagird təmayüllər üzrə təhsilə cəlb edilib. Ötən il ölkəmizin bir sıra şəhər və rayonlarında 60 lisey sinif yaradılıb. Gəncə şəhərində və Quba rayonunda Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin, Şirvan və Şəki şəhərlərində isə nazirliyin tabeliyindəki Kimya-biologiya təmayüllü Respublika liseyinin sinifləri yaradılıb. Siniflərin yaradılmasında əsas məqsəd bölgələrdə istedadlı uşaq və gənclərin potensial imkanlarının aşkarlanması, inkişaf etdirilməsi və onların səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılmasıdır. Bu siniflər həm də beynəlxalq olimpiadalara hazırlıq mərkəzi funksiyasını daşıyır.

Ceyhun Bayramov bildirib ki, hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün, habelə gənclər üçün Prezident mükafatının təsis edilməsi onların daha yaxşı təhsil ala bilməsi, təhsilin əlçatanlığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

"Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sərəncama əsasən, ali məktəblərdə müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 2019-cu il martın 1-dən 16 000 vahid artırılması ilə 2019-2020-ci tədris ilində təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbəti 45 faizə çatdırılıb.

Nazir diqqətə çatdırıb ki, bu gün qarşımızda duran əsas çağırışlardan biri də peşə təhsilinə marağın və peşə təhsilinin nüfuzunun artırılmasıdır. Bu təhsil pilləsinə uğursuz karyera seçimi kimi baxılması stereotipləri tam aradan qaldırılmalı, peşə təhsili mərkəzlərinə peşəkarların hazırlanması məkanı kimi baxılmalıdır. Bu istiqamətdə həm təhsil müəssisələri, həm də sahibkarlar birgə çalışmalı, gənclərimizin və valideynlərin maariflləndirilməsi, cəmiyyətdə peşə təhsilinin ictimai statusunun yüksəldilməsi üçün səylərini əsirgəməməlidirlər.

# Azərbaycanın Müdafiə naziri ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşüb



Oktyabrın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ATƏT-in Minsk qrupunun həmsədrləri Stefan Viskonti (Fransa), İqor Popov (Rusiya), Endrü Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə qoşunların təmas xəttində - Ermənistan-Azərbaycan dövlət sərhədində, xüsusilə cəbhənin Qazax istiqamətində son vəziyyət və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

# Azərbaycanın Müdafiə naziri Çinə səfər edəcək

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Çin Xalq Respublikası (ÇXR) Dövlət Şurasının üzvü və Milli Müdafiə naziri, general-polkovnik Vey Fenxenin dəvəti ilə bu ölkəyə səfər edəcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Müdafiə nazirinin Çin Xalq Respublikasının hərbi-siyasi rəhbərliyi ilə bir sıra görüşləri planlaşdırılır.

# Hərbi Dəniz Qüvvələrinin taktiki təlimi keçirilir

Azərbaycanın Xəzər dənizindəki ərazi sularında enerji infrastrukturunun mühafizəsi üzrə Hərbi Dəniz Qüvvələrinin (HDQ) taktiki təlimi keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması məsələlərinin işlənilməsi üzrə keçirilən təlimin məqsədi gəmi birləşmələrinin tərkibində birgə fəaliyyətin təşkilidir.

Təlimdə qüvvələrin idarəolunması üzrə komandirlərin və qərargahların bacarıqları təkmilləşdirilir, gəmi birləşmələrinin döyüş tapşırıqlarının yerinə yetirilməsi hazırlıqları yoxlanılır.

# Mariya Zaxarova rusiyalı deputatın işğal olunmuş Dağlıq Qarabağa qanunsuz səfəri haqqında danışıb

Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə vasitəçilərin vəzifəsi bu məsələnin qəti nizamlanması məqsədinə nail olmaq istiqamətində fəaliyyəti maksimum sürətləndirməkdir.

AZƏRTAC xəbər verir ki, bu bəyanatı Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirdiyi brifinqdə səsləndirib. O deyib: "Biz danışıqlara dair masanın üzərində olan gündəliyi əsas götürürük. Biz tərəflər və ATƏT-in Minsk qrupunun həmsədrləri arasında razılaşdırılmış sənədlərlə işləyirik. Bir vasitəçi kimi bizim vəzifəmiz bu məsələnin qəti nizamlanması məqsədinə nail olmaq istiqamətində fəaliyyəti maksimum sürətləndirməkdir. Biz öz tərəfimizdən həmişə tərəfləri bu cür konstruktiv dialoqa çağırmışıq. Bizə elə gəlir ki, bu məsələni maksimum ardıcıl həyata keçiririk və hamını konstruktiv fəaliyyətə, bu istiqamətdə konstruktiv addımlar atmağa çağırırıq. Bizim razılaşdırılmış formullarımız, razılaşdırılmış sənədlərimiz və irəliyə doğru fəaliyyət üzrə razılaşdırılmış gündəliyimiz var".

Rusiya XİN-in rəsmi nümayəndəsi RF Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitəsi sədrinin birinci müavini, Dövlət Dumasının deputatı Konstantin Zatulinin separatçı rejim tərəfindən Azərbaycanın işğal olunmuş torpaqlarında keçirilmiş tədbirdə iştirakı ilə bağlı Azərbaycanın Rusiyadakı səfirliyindən daxil olmuş rəsmi sorğunu da cavablandırıb. O qeyd edib ki, Rusiya XİN-in rəsmi saytında rəsmi Bakının xüsusi icazəsi olmadan keçmiş Dağlıq Qarabağ vilayəti və onun ətrafındakı yeddi rayonun ərazisinə səfər edən Rusiya Federasiyası vətəndaşlarına Azərbaycan tərəfindən gələcəkdə Azərbaycan Respublikasının ərazisinə giriş üçün rədd cavabı veriləcəyi barədə aktual xəbərdarlıq var.

Mariya Zaxarova qeyd edib ki, Rusiya XİN-in mövqeyi dəyişməz olaraq qalır, Dağlıq Qarabağın statusuna gəldikdə isə, bu məsələ Minsk prosesi çərçivəsində danışıqlarda müəyyən edilə bilər. Siyasətçilərin, vətəndaş cəmiyyəti nümayəndələrinin bəyanatlarına gəldikdə, Rusiya XİN-in rəsmi nümayəndəsi bildirib ki, onlar özlərinin nöqteyi-nəzərini əks etdirir, lakin XİN və digər idarələrin mövqeyi ilə heç bir əlaqəsi yoxdur.

# Kamran BAYRAMOV: "Ermənistan Şahbaz Quliyevi və Dilqəm Əsgərovu əsirlikdə saxlamaqla beynəlxalq humanitar hüququ kobud surətdə pozur"

Parlamentlərarası İttifaqın Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 141-ci Assambleyasında İttifaqın Beynəlxalq humanitar hüququn təşviqi üzrə komitəsinin Cenevrə konvensiyalarına həsr olunmuş açıq sessiyası olub. AZƏRTAC xəbər verir ki, tədbirdə iştirak edən nümayəndə heyətimizin üzvü, Milli Məclisin deputatı Kamran Bayramov çıxış edərək ölkəmizin beynəlxalq humanitar hüquqa hörmətlə yanaşdığını, müvafiq Cenevrə konvensiyalarına tərəfdar çıxdığını və müddəalarına ciddi şəkildə əməl etdiyini bildirib. Deputatımız beynəlxalq humanitar hüququn təşviq edilməsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin səylərini və xidmətlərini xüsusilə qeyd edib.

Kamran Bayramov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrindən danışaraq işğal siyasətini həyata keçirən Ermənistanın beynəlxalq humanitar hüququn prinsiplərinə məhəl qoymadığını, Şahbaz Quliyevi və Dilqəm Əsgərovu beş ildən artıq əsirlikdə saxlamaqla və onlara işgəncələr verməklə beynəlxalq humanitar hüququ kobud surətdə pozduğunu sessiya iştirakçılarının diqqətinə çatdırıb. O, tədbirdə iştirak edən Ermənistan nümayəndələrini qeyd edilən mülki şəxslərin əsirlikdən tezliklə azad olunmasına çağırıb.

Assambleya çərçivəsində deputatımız həmçinin "Beynəlxalq hüquqa BMT-nin Nizamnaməsi və qətnamələri əsasında əməl olunması" mövzusunda keçirilən panel müzakirələrdə iştirak edib.

Çıxışında Kamran Bayramov BMT-nin Təhlükəsizlik Şurasının sülhməramlı missiyalar yaratmaq, müvafiq sanksiyalar tətbiq etmək, gücün tətbiq edilməsinə icazə vermək hüququna malik olduğuna baxmayaraq, onun dörd qətnaməsini 25 ildən artıq müddət ərzində yerinə yetirməyən Ermənistanın hələ də cəzasız qaldığını təəssüflə qeyd edib. Sonda deputatımız panel müzakirələrin iştirakçılarına müraciət edərək təmsil etdikləri dövlətləri hüququn aliliyinə sadiq qalmağa çağırıb, BMT-nin və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinin icra olunmamasına görə dövlətlərin məsuliyyətinin gücləndirilməsini təklif edib.

# Azərbaycan Respublikası bütün dünyada ən uğurlu gənc dövlət hesab olunur

## Əli ƏHMƏDOV: "Xalqın və iqtidarın birliyi həyatımızın nəinki reallığı, eyni zamanda gələcək uğurlarımızın rəhnidir"



**Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli ƏHMƏDOV "Facebook" sosial şəbəkəsində "18 OKTYABR. ETİRAF ANI" sərlövhəli status paylaşıb. Dövlət müstəqilliyinin bərpasının 28-ci ildönümü kontekstində Azərbaycanın keçdiyi çətin və şərəfli yol, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən əldə olunan möhtəşəm nailiyyətlər barədə müfəssəl rəyin əks olunduğu fikirləri oxucularımıza təqdim edirik.**

"Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 28-ci ildönümü tamam olur. SSRİ-nin süqutu nəticəsində baş tutan dövlət müstəqilliyi xalqın qəlbində bəslədiyi istək və arzuların təntənəsi olmaqla yanaşı, eyni zamanda, ölkəmizin gələcək inkişafı baxımından möhtəşəm şans və başlanğıc idi. Müstəqilliyə qovuşduqdan sonra ilk iki ili çıxmaq şərti ilə artıq tarixə çevrilmiş 26 il milli dirçəlişin və inkişafın, müstəqil dövlət quruculuğunun, sabitliyin və əmin-amanlığın, daim yüksələn sosial rifahın və müasirliyin bariz ifadəsi kimi yaddaşlara həkk olunub. Fərəhləndirici haldır ki, Azərbaycan Respublikası bütün dünyada ən uğurlu gənc dövlət hesab olunur. Bir nəslin gözləri önündə həyat bütünlüklə dəyişdi, müstəqilliyin ilk iki ilinə təsadüf edən səriştəsiz və məsuliyyətsiz rəhbərlərin səhvləri və günahları üzündən hərtərəfli böhran məngənəsində sıxılan, dağıntı və talanlardan əziyyət çəkən ölkə qısa zaman kəsiyində çiçəklənən məmləkətə çevrildi. Orta və yuxarı yaşlı nəslin yaxşı xatırladığı o Azərbaycanı bugün 30 yaşına qədər olan insanlar görməyib və bəlkə də ölkəmizdə gerçəkləşən möcüzəni, onun əsl mahiyyətini, miqyasını tam dərk edə bilmirlər. Çünki onların təsəvvüründə yalnız indiki Azərbaycan, onun gözəllikləri həkk olunub. Gənclərin rahatlığından məmnun olduğu indiki həyatın və ümumiyyətlə, bugünkü Azərbaycanın 1990-cı illərin əvvəllərindəki Azərbaycandan nə qədər uzaq məsafədə olduğunu bilməsi yaxşı olardı. Onda ölkənin həyatında baş verən əzəmətli tarixi dəyişikliyin miqyasını və əhəmiyyətini daha düzgün, daha ədalətli qiymətləndirə bilərdilər.

18 oktyabr Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü yolunda verdiyimiz qurbanları xatırlamaq üçün yaxşı bir fürsətdir. Azadlıq, müstəqillik yolunda canlarından keçənlərin xatirəsi unudulmur, hörmət və ehtiramla yad edilir. Onlar dövlətimizin bütövlüyü və azadlığı yolunda şəhid olmuş qəhrəmanlardır.

Bu əlamətdar gündə müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin xatırlanması, xatirəsinə xalq hörməti və ehtiramının ifadə edilməsi xüsusi məna və əhəmiyyət kəsb edir. Xalqın on illərlə arzusunda olduğu müstəqilliyin qorunması, saxlanılması, əsl milli dəyərə və nemətə çevrilməsi, müstəqilliyin ali ifadəsi sayılan dövlətin qurulması müstəsna olaraq onun xidməti sayəsində mümkün olmuşdur. Azərbaycanın müasir tarixinin şahidi olanların və istər ölkə daxilində, istər ölkə xaricində bu tarixi izləyənlərin hər biri Heydər Əliyevin 1993-cü ilin iyun ayında tarixi qayıdışını Azərbaycan dövlətçiliyinin xilası kimi dəyərləndirir. Əgər bu qayıdış baş tutmasaydı, ölkəmiz və onun hər bir sakini fərqli tale və tarix yaşamalı olacaqdı. Yalnız Heydər Əliyevin müdrikliyi, təcrübəsi, iradəsi və qətiyyəti sayəsində ölkə bütün mümkün faciələrdən, təlatümlərdən, parçalanmalardan xilas oldu, insanların səbirsizliklə gözlədiyi sabitlik və əmin-amanlıq bərpa edildi, Azərbaycana misilsiz iqtisadi və geopolitik dividentlər gətirən (və bu gün də gətirməkdə davam edən) "Əsrin Neft Müqaviləsi" imzalandı. Bütün bunların nəticəsində müstəqillik əbədi və dönməz oldu, insanlar onun real bəhrəsini gördü, həqiqi dəyərini və mənasını hiss etməyə başladılar.

Bugün eyni zamanda 2003-cü ilin prezident seçkilərində xalqın dərin etimadını qazanan Prezident İlham Əliyevin yürütdüyü siyasətin möhtəşəm təntənəsinin etiraf anıdır. Şərəfli tarixə çevrilmiş 16 il ərzində iqtisadiyyat 3 dəfə böyüdü, Azərbaycan dövlətinin qüdrəti misilsiz dərəcədə artdı, ordumuz gücləndi və dünyada 52-ci pilləyə yüksəldi. Ölkənin siması tanınmaz dərəcədə dəyişdi, müasirləşdi. Azərbaycan yaşamaq və işləmək üçün cazibədar məkana çevrildi. Əhalinin rifahını ardıcıl olaraq yaxşılaşdıran layihələr həyata keçirildi və həyata keçirilməkdədir. Yeni islahatlar strategiyası hazırlanıb uğurla tətbiq edilməkdədir. Azərbaycan indi dünyada ən çox islahat keçirən ölkələrdən biri kimi tanınır.

Həyatımızda baş verən dərin transformasiya insanlarımızda, onların nəinki həyat və məişətində, habelə düşüncələrində, həyata münasibətində müsbət dəyişikliklərlə müşayiət olunur. Nikbinlik, ictimai fəallıq, vətənpərvərlik, müasirlik bugünkü azərbaycanlını fərqləndirən başlıca xüsusiyyətlərdir. O özünün və övladlarının gələcəyini ölkəmizin hazırkı inkişafından ayrı təsəvvür etmir və buna görə də bu inkişafı həm qorumağa, həm də ona töhfələr verməyə hazırdır. Xalqın və iqtidarın birliyi həyatımızın nəinki reallığı, eyni zamanda gələcək uğurlarımızın rəhnidir.

18 oktyabr etiraf anı, hər şeydən əvvəl, bir daha xalqımızın və dövlətimizin qarşısında dahi Heydər Əliyevin müstəsna xidmətlərinin dərk edilməsindən və qiymətləndirilməsindən keçir. Bu, eyni zamanda son 16 ilin inkişafının, müasirləşməsinin, Azərbaycanın gücünün, qüdrətinin, dünyadakı rolunun və müsbət imicinin, insanlarda gələcəyə sönməz inamın formalaşmasının memarı Prezident İlham Əliyevin müstəsna xidmətlərinin bir daha dərk edilməsi və qiymətləndirilməsi anıdır. Xalqla iqtidarın haqqında bəhs etdiyimiz sarsılmaz birliyi məhz buna arxalanır.

Azərbaycanın dövlət müstəqilliyi əbədi olsun".

# Muxtar respublikada payızlıq taxıl əkini aparılır

Taxılçılığın inkişafı əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm rol oynayır. Muxtar respublikada torpaq mülkiyyətçilərinin texnika, toxum və gübrə təminatı, qapalı suvarma şəbəkələrinin qurulması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması taxılçılığın inkişafına və bol məhsul istehsalına imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl əkini sahələrində olub, muxtar respublikada taxıl əkininin gedişi ilə maraqlanıb.

Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini Elşad Əliyev məlumat verib ki, muxtar respublikada 2020-ci ilin məhsulu üçün 32 min hektar sahədə taxıl əkiləcək, onun da 6 min hektarı dəmyə əkinidir. Taxıl əkininə lazımi qədər texnika və avadanlıq cəlb olunub. Əkin şırım üsulu ilə aparılır. Bu məqsədlə toxumsəpənlərə şırımaçan aqreqat qoşulub. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında və torpaq mülkiyyətçilərində tələbata uyğun toxum ehtiyatı yaradılıb. Əkindən əvvəl toxumlar dərmanlanıb və toxumçuluq laboratoriyasında analiz olunaraq sertifikat verilib. Taxıl əkini hər bir sortun səpin normasına uyğun olaraq 180-200 kiloqram hesabı ilə aparılır, toxumla birlikdə torpağın strukturuna uyğun olaraq hər hektara 100 kiloqram zənginləşdirilmiş gübrə verilir. Bu günə qədər muxtar respublikada 21 min 901 hektar sahədə şum, 5 min hektardan artıq sahədə isə əkin aparılıb.

Bildirilib ki, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 1350 hektar sahədə payızlıq taxıl əkini aparılacaqdır. Bu günə qədər 360 hektar əkilib. Əkində yerli şəraitə uyğun "Qobustan", "Fatimə", "Quality" və "Bezostya" məhsuldar toxum sortlarından istifadə olunur. Əkinə təsərrüfatın 20 texnikası cəlb olunub. Şırım üsulu ilə əkin və ərazidə qurulan qapalı suvarma şəbəkəsi məhsuldarlığı xeyli artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərin taxılçılığın inkişafı üçün geniş imkanlar yaratdığını bildirərək deyib: "Mütərəqqi əkin və suvarma metodlarının tətbiqi, toxum və su ehtiyatının yaradılması, texnika təminatı imkan verir ki, muxtar respublikada taxıl əkinləri aqrotexniki qaydalara uyğun aparılsın. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması torpaq mülkiyyətçilərinin məhsuldar toxum sortları ilə təmin olunmasına, eyni zamanda, yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Toxumların dərmanlanması, şırım üsulu ilə əkinə üstünlük verilməsi, dövlət tərəfindən hər il yüz hektarlarla qapalı suvarma şəbəkələrinin qurulması məhsuldarlığı artırmışdır. Bu işlərin görülməsində məqsəd ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsidir".

Ali Məclisin Sədri muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənildiyini bildirib və bu işdə əməyi olanlara təşəkkür edib.

Ali Məclisin Sədri torpaq mülkiyyətçiləri arasında aqrotexniki qaydalara əməl olunması ilə bağlı maarifləndirmə işlərinin aparılması, əkin atlaslarına əməl edilməsi, əkinə cəlb olunmuş texnikalara yerində texniki xidmətin göstərilməsi, qapalı suvarma şəbəkələri qurulacaq ərazilərin xəritələşdirilməsi, payız suvarma mövsümünə başlanılması və taxıl əkininin mütəşəkkil başa çatdırılması barədə aidiyyəti qurumlara tapşırıqlar verib.

# BSU-da tədbir: "50 il qüdrətli Azərbaycan naminə"





Oktyabrın 17-də Bakı Slavyan Universitetində (BSU) Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş "50 il qüdrətli Azərbaycan naminə" adlı tədbir keçirilib.

Tədbirdə Yeni Azərbaycan Partiyasının (YAP) və Təhsil Nazirliyinin məsul şəxsləri, Milli Məclisin deputatları, ictimai-siyasi xadimlər, ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirləri, media strukturlarının rəhbərləri, təhsil ekspertləri və ziyalılar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üstünə tər güllər düzülüb.

BSU-da davam edən tədbirdə ali məktəbin nəzdində Məktəb-Lisey Kompleksinin xoru Azərbaycan Respublikasının Dövlət himnini səsləndirib. Sonra tədbir iştirakçıları Ümummilli Liderə həsr olunmuş "Ulu Öndər Heydər Əliyev" sənədli filminə tamaşa ediblər.

Tədbirdə BSU-nun rektoru, YAP-ın Qadınlar Şurasının sədri, professor Nurlana Əliyeva müstəqilliyin bərpasından sonra Azərbaycanın keçdiyi inkişaf yolundan, qazandığı uğurlardan danışıb. O, Azərbaycanın dünya dövlətləri sırasında layiqli yer tutduğunu, bu inkişaf və tərəqqinin Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Müstəqillik Gününün bəhrələri olduğunu vurğulayıb. Rektor müstəqilliyin ilk illərində Azərbaycanın dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşdiyini xatırladıb. Qeyd edib ki, xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkəmiz məhvolma təhlükəsindən, vətəndaş müharibəsindən xilas edilib. Həmçinin ictimai-siyasi sabitlik bərqərar olub və bütün sahələrdə uğurlu islahatların başlanmasına zəmin yaradılıb.

Müstəqillik illərində ölkəmizdə yeni gənc nəslin formalaşdığını, həmin gənclərin məhz müstəqil Azərbaycan Respublikasında dünyaya göz açdıqlarını deyən rektor onları dövlətimizin təəssübünü çəkməyə, ölkə rəhbərinin ətrafında sıx birləşməyə çağırıb.

Ulu Öndərin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra əldə olunan nailiyyətlərdən danışan N.Əliyeva siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, respublikamızın həm də beynəlxalq aləmdəki mövqeyinin gündən-günə möhkəmləndiyini, müstəqilliyimizin daimi və əbədi olacağına əminliyini bildirib.

Milli Məclis sədrinin müavini Bahar Muradova bildirib ki, Ulu Öndər sovet dövründə Azərbaycanın birinci şəxsi olanda atdığı bəzi addımlarla məhdud çərçivədəki hüquqlardan maksimum yararlanmaq şansını əldən vermədi, hətta bu yöndə müəyyən dərəcədə uğurlar əldə etdi, Azərbaycan dilini dövlət dili kimi rəsmiləşdirdi. O, Ümummilli Liderin hakimiyyətə yenidən qayıdışından dərhal sonra qanunvericilik sahəsində islahatlar aparıldığını, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edildiyini, ilk parlament seçkiləri keçirildiyini, gənclər siyasəti, mədəniyyət, idmanın inkişafı sahəsində addımlar atıldığını diqqətə çatdırıb.

"Biz indi maraqlı və gözəl bir filmi izlədik. Hər dəfə Ulu Öndərlə bağlı yeni bir filmə baxdıqdan sonra düşünürsən ki, bu film əvvəlkindən daha yaxşıdır. Bu ona görə belədir ki, bu filmlərin hamısında bir səmimiyyət var, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin böyük azərbaycanlı obrazı var. Bu filmlərin hər birində Ulu Öndərin şəxsiyyətinin və siyasi müdrikliyinin yeni bir səhifəsi ilə tanış olursan. Səhnədə bizə xoş günlər bəxş etmiş Ulu Öndərin, Azərbaycan Respublikasının üçrəngli bayrağı və "50 il qüdrətli Azərbaycan naminə" yazısından ibarət maraqlı bir şəkil asılıb. Bunlar üçü bir yerdə müasir müstəqil Azərbaycan deməkdir və bir-birini mükəmməl şəkildə tamamlayır" deyən Bahar Muradova Ulu Öndər Heydər Əliyevin qətiyyət və siyasi iradəsi sayəsində mənsub olduğu xalqı və qurduğu dövləti dünya miqyasında tanıtdığını və bu dövlətin müstəqilliyinin etibarlı təminatını yaratdığını vurğulayıb.

Tədbirin keçirilməsinə görə BSU-nun rəhbərliyinə və kollektivinə minnətdarlığını bildirən Bahar Muradova Ulu Öndərin Azərbaycan xalqını ağır vəziyyətdən çıxararaq uğura qovuşdurması, müstəqilliyin dönməzliyinin, əbədiliyinin təmin olunması ilə yaddaşlarda qalacağını deyib: "Nə qədər ki, Azərbaycan, Azərbaycan xalqı var, Ulu Öndərin dövlətimiz və Vətən qarşısındakı xidmətləri ehtiram və sonsuz minnətdarlıqla xatırlanacaq. Zaman tarixi baxımından bu böyük şəxsiyyəti bizdən uzaqlaşdırdıqca, o, bizim qəlbimizdə böyüyəcək və bizə daha da yaxınlaşacaq".

BSU-nun Tələbə Elmi Cəmiyyətinin sədri Könül Zeynallı çıxışında böyük siyasi xadim Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan gəncliyinin qüdrətli hamisi və qayğıkeş müəllimi olduğunu bildirib. Vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan gəncliyi xalqımız, Vətənimiz və dövlətimiz naminə hər cür fədakarlığa hazırdır.

Bədii hissə ilə davam edən tədbirdə universitetin "Arzu" rəqs ansamblının ifa etdiyi "Yallı" rəqsi, slavyan xalqlarının rəqsləri, türk rəqsi, "Sarı gəlin" böyük maraqla qarşılanıb. Bununla yanaşı, BSU-da təhsil alan xarici tələbələrin və universitetin tədris-mədəniyyət mərkəzlərində təmsil olunan tələbələrin Azərbaycan və müxtəlif dillərdə Ulu Öndərin kəlamlarını səsləndirmələri, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının solisti Şaban Cəfərovun ifa etdiyi "Azərbaycan" mahnısı, şair Qabil Ədalətin "Bir ulu sərkərdə, bir Ulu Öndər" şeiri tədbirə xüsusi ovqat qatıb. Xalq artisti Azər Zeynalovun ifa etdiyi "Azərbaycan" mahnısı hamıda yüksək əhvali-ruhiyyə yaradıb.

# "Daily News Hungary" nəşrində məqalə dərc edilib

"Macarıstan Türk Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurasının) üzvü olan ölkələr üçün Avropa İttifaqı ilə əlaqələrin inkişaf etdirilməsində əməliyyat meydanı ola bilər".

AZƏRTAC xəbər verir ki, Türk Şurasının bu günlərdə Bakıda keçirilmiş Zirvə Görüşündə Macarıstanın Baş Naziri Viktor Orbanın söylədiyi bu sözlər Macarıstanda çıxan ingilisdilli "Daily News Hungary" nəşrində dərc olunmuş məqalədə sitat gətirilib.

AZƏRTAC-ın materiallarından istifadə edilməklə hazırlanmış məqalədə Baş Nazir Viktor Orbanın Bakıdakı bəyanatından aşağıdakı hissə xüsusi vurğulanır: "Macarıstan Avropa Komissiyasının yeni tərkibində genişlənmə və qonşuluq siyasəti portfelinə sahib olmaq uğrunda mübarizə aparır". Bu mübarizənin "ağır döyüş" olacağını etiraf edən Baş Nazir Macarıstanın şansının pis olmadığını söyləyib.

Macarıstan hökumətinin başçısı deyib: "Əgər biz uğur qazansaq, Şərq Tərəfdaşlığı və Türkiyənin Aİ-də üzvlüyü barədə danışıqlar çərçivəsində Azərbaycan ilə sıx əməkdaşlıq edəcəyik".

Orban bildirib ki, Macarıstanın Eksimbankı Türk Şurasının üzvü olan dövlətlər üçün kredit xətti açıb. O, daha sonra vurğulayıb ki, Türk Şurasının üzvü olan dövlətlərlə Macarıstan arasında ticarətin həcmi iki dəfə artaraq 4 milyard ABŞ dollarına çatıb. Orban onu da qeyd edib ki, sentyabr ayında Budapeştdə Türk Şurasının Avropa nümayəndəliyi açılıb.

Macarıstan hazırda Türk Şurası ölkələrindən olan gənclər üçün 700-dən çox təqaüd verir.

Arayış üçün bildirək ki, Türk Şurasının üzvləri Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstandır. Bakıda keçirilən Zirvə Görüşündə Özbəkistan da bu təşkilatın tamhüquqlu üzvü olub. Macarıstan isə 2018-ci ildən şurada müşahidəçi statusuna malikdir.

# Türk dünyasında qarşılıqlı əməkdaşlığın inkişaf perspektivləri

Uzun illərdir ki, səlahiyyətli beynəlxalq təşkilatlar ədalətsizlik bayrağı ilə ikili standartlara əsir düşmüşlər. Azərbaycanın Dağlıq Qarabağ faciəsini böyük dövlətlərin liderləri sanki hələ də görmək və qəti olaraq həll etmək istəmirlər. Bəs necə ola bilər ki, ermənilərin Qarabağda işğalçılığı haqqında 4 qətnamə qəbul edilir, amma istilaçını işğal olunmuş ərazilərdən qovub çıxarmaq məsələsi həyata keçirilmir?

Çox maraqlıdır ki, Dağlıq Qarabağda ermənilərin azərbaycanlılara qarşı qanlı mübarizəsini, soydaşlarımızın ata-baba torpaqlarında soyqırımına məruz qoymalarını "azadlıq aktı", Azərbaycanın ərazi suverenliyini bərpa etmək uğrunda mübarizəsini "azadlığı boğma" kimi dəyərləndirənlər də az deyildir.

On il əvvəl qədim türk yurdu Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradıldı. Bu keçən 10 il müddətində təşkilatın həm qlobal kontekstdə, həm də özümüz üçün zəruriliyini və aktuallığını sübut etməyə nail olduq. 10 il ərzində bütün mövcud sənədlərdən də görünür ki, Türk Şurası tamhüquqlu beynəlxalq təşkilat kimi özünü doğruldub.

Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi. Zirvə görüşündə türk respublikalarının geniş təmsilçiliyi var idi. Zirvə toplantısının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətində iştirak edənlərə minnətdarlığını bildirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindəndir".

Keçən müddət ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının coğrafiyası genişlənmiş və yeni üzvlər qəbul edilmişdir. Macarıstan artıq təşkilatda müşahidəçi statusu əldə edib. Şuranın qərarları keçən 10 il müddətində bir daha təsdiq etmişdir ki, türk dünyasında birlik və həmrəyliyin daha da güclənməsinə, əməkdaşlığımızın dərinləşməsinə xidmət etmişdir.

Zirvə toplantısında beynəlxalq əhəmiyyət daşıyan hadisələrdən biri Macarıstanın Türk Şurası ilə əməkdaşlığıdır. Bu, şuranın Avropa ölkələri və regional təşkilatlarla əlaqələrinin inkişafına təkan verəcək.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti sayəsində nəqliyyat dəhlizləri genişlənir, energetika müəssisələri inşa edilir, yüngül sənaye və kənd təsərrüfatı inkişaf etdirilir. Logistika, nəqliyyat, turizm, innovasiya texnologiyaları kimi sektorlar da uğurla inkişaf etdirilir.

İlham Əliyev zirvə görüşündə demişdir: "Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın destruktiv siyasətinə görə irəliləyiş yoxdur. Ermənistan 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir". Ermənistan Respublikası işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenə də diqqəti ermənilərin hər yerdə olduğu kimi, Dağlıq Qarabağda da həyata keçirdikləri vandalizm aktına yönəltmişdir. Ermənilər dünyanın gözü qarşısında həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, İslam abidələri və məscidlərimizi dağıdıb və məhv ediblər.

Dağlıq Qarabağ probleminin ən qısa müddətdə sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməsi üçün səyləri davam etdirəcəklərini türkdilli respublikaların rəhbərləri bəyan etmişlər.

Şuranın BMT Baş Assambleyasında və İslam Əməkdaşlıq Təşkilatında müşahidəçi statusuna sahib olmasını da təşkilat üzvləri təklif etdilər.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakı zirvəsində təşkilatın perspektivi haqqında inamlı fikirlər səslənmiş və layihələr haqqında məlumat verilmişdir. Təşkilatın katibliyindən verilən məlumata görə, qurumun inkişafının növbəti mərhələsinə keçilir. Qarşıdakı illər üçün təşkilatın qarşısında duran gündəlikdə "Türk baxışı 2040" proqramının işlənilməsi məsələsi durur.

Bununla bağlı şuranın katibliyi tərəfindən təşkilatın perspektivlərini müəyyən edən "Türk Şurası 2025" adlı yeni strategiya hazırlanır. Təşkilat birgə Xəzər gəmiçilik şirkətinin yaradılmasını müzakirə etməyi planlaşdırır.

***Həsənbala SADIQOV,***
***professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

# Azərbaycan türkdilli ölkələr arasında əməkdaşlığın inkişafı üçün müstəsna əhəmiyyət kəsb edir

Hazırda Azərbaycan beynəlxalq əməkdaşlığın və ümumbəşəri dəyərlərin möhkəmlənməsinə yönəlmiş qlobal beynəlxalq layihələrin yüksək səviyyədə həyata keçirildiyi əsas ölkələrdən biridir.

Ukraynalı məşhur yazıçı, Taras Şevçenko adına Milli mükafatın laureatı Qriqori Hüseynov bu fikirləri AZƏRTAC-a müsahibəsində oktyabrın 15-də Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün yekunlarını şərh edərək söyləyib.

Onun sözlərinə görə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün keçiriləcəyi məkan kimi məhz Bakının seçilməsi təsadüfi deyil, çünki Azərbaycan türk xalqlarının mədəni irsinin, onların identikliyinin qorunub saxlanması, türk ölkələri arasında mədəni, sosial, iqtisadi və dostluq əlaqələrinin möhkəmlənməsi üçün çox böyük işlər görüb.

Yazıçı deyib: "Azərbaycan həm də multikulturalizm və tolerantlıq siyasətini həyata keçirən, müxtəlif dinlərin və etnosların mədəni və memarlıq irsini qoruyub saxlayan nümunəvi dövlətdir".

Xatırladaq ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə bu təşkilata sədrlik Qırğızıstandan Azərbaycana keçib. Qriqori Hüseynovun sözlərinə görə, Azərbaycanın sədrliyi dövrü həm türk xalqları, həm də bütün dünya üçün tarixi əhəmiyyət kəsb edən bir sıra mühüm layihələrlə əlamətdar olacaq.

Tanınmış yazıçı deyib: "Azərbaycan həm regionda, həm də dünyada böyük nüfuz sahibidir. O, sülh, mehriban qonşuluq, beynəlxalq hüquq və tolerantlıq kimi dəyərlərin bərqərar olması üçün öz imkanlarından istifadə edir. Düşünürəm ki, Azərbaycanda görülən işlər türk xalqları arasında əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyət üçün yeni platformalar yaradılması baxımından müstəsna əhəmiyyət kəsb edir".



# MÜSTƏQİL DÖVLƏTDƏ













*Əvvəli 1-ci səh.*

❖ ❖ ❖

**Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanı sabitlik və əmin-amanlıq adası kimi qoruyub saxlayır, Cənubi Qafqazın lider dövlətinə çevirərək iqtisadi qüdrətini və siyasi nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir!**

*Xain niyyətlərin, alçaq qəsdlərin hələ də davam etdiyi indiki mürəkkəb beynəlxalq şəraitdə bütün bəlalardan və alçaq qəsdlərdən məharətlə qoruyaraq irəli aparır!*

**İlham Əliyevə ümumxalq sevgisinin əsl səbəbi budur!**

*İlham Əliyevi qüdrətli liderə və müdrik dövlət başçısına çevirən amillər məhz xalqın arzu və əməllərini daim həyata keçirməsi, müstəqil dövlətimizi qoruyub inkişaf etdirməsi, Heydər Əliyev siyasi kursu ilə məharətlə zirvədən-zirvəyə çatdırmasıdır!*

Əgər Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdaraq dövlətimizi və dövlətçiliyimizi dağılmadan və məhvolmadan xilas etməsəydi, İlham Əliyev iqtisadi yüksəlişi, dünyaya inteqrasiyanı, müxtəlif təhlükə və təhdidləri dəf etməyi, qonşu və digər dövlətlərlə bərabərhüquqlu və milli maraqlara əsaslanan siyasət qurmasaydı, ən nəhayət, xalqın istək və arzularını vədəsində gerçəkləşdirməsəydi, yəqin ki, cəmi 23 ay ömür sürən Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yenidən yaşayacaqdıq!

## HƏQİQİ MÜSTƏQİLLİK NƏDİR?

**Həqiqi müstəqillik ilk növbədə müstəqil daxili və xarici siyasət hazırlayıb həyata keçirməkdir.**

Bu siyasətin mühüm konturlarını Ulu Öndər Heydər Əliyev cızmışdır.

Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk günlərdən çox uğurlu xarici və daxili siyasət yeridir.

Bu siyasətin mərkəzində müstəqil Azərbaycanın mənafeyi, Azərbaycan xalqının milli maraqları durur!

Bu siyasət beynəlxalq qurum və təşkilatlar, eləcə də dövlətlərlə milli maraqlarımıza əsaslanan əlaqə və münasibətlər yaradılmasına, sülh və əməkdaşlığa xidmət edir!

Bu siyasət kimsənin Azərbaycanın daxili işlərinə qarışmasına yol vermir!

Çünki Azərbaycan da heç bir dövlətin daxili işlərinə müdaxilə etmir!

**Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasət qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirmişdir.**

İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkmiş, bir çox ölkədə öyrənilməyə başlanmış, örnəyə çevrilmişdir.

❖ ❖ ❖

**Daxili siyasət də məhz müstəqillik prinsipinə söykənir!**

Əvvəla, daxili siyasət ölkə daxilində ölkə rəhbəri tərəfindən hazırlanır və reallaşdırılır.

İkincisi, bir daha vurğulayırıq, dövlətin və xalqın maraqlarına xidmət edir.

Bu siyasəti cənab İlham Əliyev yığcam şəkildə belə ifadə etmişdir: *"Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır".*

AYDINLIQ ÜÇÜN MÜQAYİSƏ EDİRİK:

Yaxın keçmişimizdə, SSRİ-nin tərkibində olduğumuz zaman xarici və daxili siyasətlə bağlı yuxarıda söylədiklərimizin heç biri mümkün deyildi!

*Çünki dövlət siyasəti ölkəmizdən kənarda, başqa dövlətin paytaxtında müəyyənləşdirilirdi.*

Həm də SSRİ-nin - "qırmızı imperiya"nın və "sovet xalqı" adlandırılan abstrakt bir toplumun "maraqları"na uyğun şəkildə!

❖ ❖ ❖

AZƏRBAYCAN HEÇ ÖZÜNÜN NEFT VƏ TƏBİİ QAZ SƏRVƏTLƏRİNİN SAHİBİ DƏ DEYİLDİ:

- Həmin məhsullar və onlardan gələn gəlirlər "ümumittifaq fondu"na toplanırdı, sonrası necə olurdu, bunu bizdən nə soruşan, nə də deyən olurdu!
- Respublika ərazisində hər hansı bir fabrik-zavod, obyekt, kənd təsərrüfatı qurğusu tikmək, yeni qəsəbə, yaşayış massivi salmaqdan ötrü hökmən bu, dövlət planına salınmalı, Moskvada təsdiq edilməli, bundan sonra vəsait ayrılmalı idi.
- Bəzən ayrılan vəsait başqa məqsədlərə yönəldildiyindən illərlə gəlib çıxmır, tikinti ya başlanmır, ya da yarımçıq qalırdı...
- Şəmkirçay və Tovuzçay su anbarları bu qəbildən idi!

**Azərbaycan Prezidenti İlham Əliyev nəinki qısa müddətdə onların tikintisini başa çatdırdı, üstəlik, Taxtakörpü və Göytəpə su anbarlarını da istifadəyə verdi.**

❖ ❖ ❖

*Müstəqillik illərində, xüsusən son on altı ildə Azərbaycanda görülən işlərin, tikilib-qurulanların sayı-hesabı yoxdur!*

ƏN YADDAQALANLARINI XATIRLADIRIQ:

- Ölkəyə 250 milyard dollar sərmayə qoyulub;
- Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilib;
- "Cənub qaz dəhlizi" inşa olunub;
- Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkilib;
- Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin Azərbaycandan keçən hissəsində mühüm layihələr icra olunub;
- Azərbaycanın sərmayəsi ilə Türkiyədə "Star" zavodu inşa olunub;
- 15 min kilometr avtomobil yolu tikilib;
- 31 yeni elektrik stansiyası inşa olunub, 2500 meqavatlıq yeni güc yaradılıb;
- dörd böyük su anbarı tikilib;
- ölkə üzrə təbii qazla təminat 96 faizə çatdırılıb;
- sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb;
- 100 mindən çox müəssisə yaradılıb;
- 17 aqropark fəaliyyətə başlayıb;
- 15 "Asan xidmət" mərkəzi yaradılıb (bu ilin sonuna qədər onların sayı 20-yə çatacaq);
- orbitə 3 peykimiz çıxarılıb.

❖ ❖ ❖

**Təbii ki, iqtisadi inkişaf sosial sahəyə birbaşa təsirini göstərir.**

BELƏ Kİ, SON 16 İLDƏ:

- 2 milyon yeni iş yeri açılıb;
- maaşlar 7, pensiyalar 9 dəfə artıb;
- işsizlik 5 faizə, yoxsulluq səviyyəsi 5,1 faizə enib;
- 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib;
- 640 tibb müəssisəsi tikilib və ya yenidən qurulub;
- 44 olimpiya idman kompleksi yaradılıb.

*Bütün bunlar son 16 ildə görülən işlərin bir qismidir!*

*Həm də ən çox maliyyə tutumlu, icrasına xeyli zaman tələb olunan işlərdir!*

*Ən başlıcası, dövlətimiz, xalqımız üçün vacib və gərəkli işlərdir.*

❖ ❖ ❖

**Cənab İlham Əliyev bütün bu işlərin təşəbbüsçüsü olmaqla layihələndirib, maliyyələşdirib, icrasına nəzarət edib, açılışında isə qırmızı lenti kəsib!**

*Heç kimdən, heç haradan icazə alınmayıb!*

Bax budur müstəqillik!

Budur müstəqil dövlət quruculuğu!

Budur xalqın arzu və istəklərinin gerçəkləşdirilməsi!

❖ ❖ ❖

Azərbaycan "müttəfiq respublika" kimi SSRİ-nin tərkibində olarkən heç bir beynəlxalq layihəni reallaşdıra bilməzdi!

Haradan keçəcəyini özü müəyyənləşdirə bilməzdi!

Maliyyə məsələlərini həll edə bilməzdi!

Əslində, heç belə xəyala düşə də bilməzdi!

*Müstəqil dövlət olanda isə baxın: özünə, Avropaya və dünyaya gərək olan neçə transmilli layihəyə həyat vəsiqəsi verib:*

- "Əsrin müqaviləsi" neft kontraktı imzalandı: Azərbaycanın milli maraqları əsasında!

Daha sonra müddəti 30 il - 2050-ci ilədək uzadıldı.

- Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin marşrutunu özümüz seçdik, çətinliklər olsa da, seçimimizi uğurla reallaşdırdıq!
- Bakı-Tbilisi-Ərzurum təbii qaz ixracı boru kəməri də öz istəyimizə tam uyğun çəkildi.
- Bakı-Tbilisi-Qars dəmir yoluna mane olmaq istəyənlər də vardı, hətta beynəlxalq banklar onu maliyyələşdirmək istəmədilər!

Amma cənab İlham Əliyev öz istəyini istədiyi kimi də həyata keçirdi, üstəlik, Bakını beynəlxalq logistika mərkəzinə çevirdi!

- "Cənub qaz dəhlizi"nə mane olmaq cəhdləri də puça çıxarıldı!

**Artıq dövlət başçısı İlham Əliyev hər hansı nəhəng layihəni reallaşdırmaq istəyəndə yalnız özünə, öz dövlətinə və xalqına qüvənməklə bunu uğurla gerçəkləşdirir!**

Müstəqil dövlətin müstəqil Prezidenti İlham Əliyev!

*Bu yolla Azərbaycan kosmik dövlətlər ailəsinə daxil olub, müasir, modern dövlətə çevrilib, iqtisadi cəhətdən qüdrətlənərək güclü siyasi nüfuz da qazanıb!*

## ƏSRLƏR BOYU XALQA XİDMƏT EDƏCƏK QURĞU VƏ OBYEKTLƏR

Azərbaycan indiyədək görünməmiş sürətlə inkişaf edərək tarixinin ən qüdrətli dövləti məqamına yüksəlib!

*Bunun əsas səbəbi müstəqilliyin verdiyi imkanlardan yetərincə istifadə edilməsidir!*

Bu gün iqtisadi inkişafın davamlılığı üçün nə gərəkdirsə, vədəsində həyata keçirilir!

Xalqın ehtiyacının daha tez və dolğun ödənilməsi üçün nə vacibdirsə, dərhal yerinə yetirilir!

MƏSƏLƏN:

- Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına qısa zamanda və təhlükəsiz çıxarılması üçün ixrac boru kəmərləri çəkilir;








# YAŞAMAQ SƏADƏTİ







■ Neftdən gələn gəlirlər iqtisadiyyatın digər sahələrinin də inkişafına yönəldilir;

■ Sənayenin çörəyi sayılan elektrik enerjisinin kifayət qədər istehsalı üçün su, istilik, alternativ elektrik stansiyaları tikilir;

■ Kənd təsərrüfatını dirçəltmək və yüksəltmək üçün su anbarları inşa olunaraq kanallar şəbəkəsi qurulur!

■ İqtisadiyyatın şah damarı sayılan yol infrastrukturu yaradılır, kəndarası yollar yenilənir;

■ Regionları sürətli inkişaf yoluna çıxarmaq, ölkə vətəndaşlarının sosial rifahını və güzəranını yaxşılaşdırmaq üçün dövlət proqramları tutulub təsdiq edilərək vaxtında həyata keçirilir!

■ **Çəkilən kəmərlər, inşa olunan su anbarları, salınan yollar, körpülər, tikilən elektrik stansiyaları, əkin vəziyyətinə gətirilən tarlalar əsrlər boyu insanlara xidmət göstərəcək qurğu və obyektlər sayılır!**

Onlara sərmayə qoyub işə saldıqdan sonra özləri gəlir verməyə başlayır, büdcəyə vəsait toplanılmasında iştirak edirlər!

*Müstəqil dövlətin isə müxtəlif mənbələrdən formalaşan varlı büdcəsinin olması mühüm şərtdir!*

## HARADAN BAŞLANIR VƏTƏN

*Sovet dövründə bizə təlqin edirdilər ki, Vətən doğulduğun komadan və obadan yox, sərhəddən başlanır!*

*Amma həmin sərhədləri yad əsgərlər qoruyurdu!*

*Üstəlik, həmin sərhədlərdən keçmək üçün özgələrdən icazə almalı idik!*

Məsələn, qardaş Türkiyəyə getmək üçün SSRİ Xarici İşlər Nazirliyindən icazə alınmalı (əgər rüsxət versəydilər), sonra Moskvaya gedərək oradan təyyarə ilə uçmalı idik!

Həm də Aeroflotun təyyarəsi ilə!

İndi isə nəinki Türkiyəyə, dünyanın istənilən nöqtəsinə belə öz ölkəmizin icazəsi, öz təyyarələrimizlə uçuruq, bir sıra dövlətlərə isə artıq vizasız da gedə bilirik!

Regionlarımızda dörd beynəlxalq təyyarə limanı tikilib və istifadəyə verilib!

Sərhədləri özümüz, öz əsgərlərimiz qoruyur!

**Doğulduğumuz yerdən başlanan Vətənimiz isə müstəqil, qüdrətli Azərbaycana çevrilib!**

## MƏİŞƏTDƏ MÜSTƏQİLLİYİN BƏHRƏLƏRİ

**Müstəqillik elə bir nemətdir ki, hətta özünü məişətdə də hiss etdirir!**

Ömrümüzün xeyli hissəsini keçirdiyimiz məişətdə!

İnsan rahat evdə yaşamadan, ailə qayğılarını vədəsində həll etmədən, məişətini düzgün qurmadan nə yaxşı dincələ, sağlam və gümrah ola, nə də gərgin, səmərəli çalışa bilər!

*Sosializmdə varlı və kasıb "yox" idi!*

*İnsanlar süni surətdə, zorla bərabərləşdirilirdi: eyni dəbdə geyinir, eyni mənzillərdə yaşayır, ailənin hər üzvünə eyni kvadratmetr mənzil sahəsi ayrılır, eyni minik avtomobili alırdılar və s.*

MÜSTƏQİLLİK DÖVRÜNDƏ
DOĞULARAQ BÖYÜMÜŞ
CAVANLARA QƏRİBƏ GƏLƏCƏK
KEÇMİŞ MƏQAMLAR:

■ geyinib bəzənmək üçün yaraşıqlı paltar tapılmırdı;

■ xarici mallar mağazalara gələndə onu gizlincə, əlavə pul ödəməklə alırdılar;

■ "Jiquli" markalı (sovet dövrünün matahı) avtomobil almaqdan ötrü növbəyə duraraq illərlə gözləməli idin;

■ "Volqa" maşınını ancaq yaradıcı insanlar, əmək qəhrəmanları ala bilərdi, başqaları alanda "pul haradandır" çək-çeviri başlayardı;

■ bir ailə yalnız bir minik avtomobili ala bilərdi, yoxsa...

■ ikimərtəbəli fərdi ev tikmək üçün xüsusi icazə alınmalı, tikinti materiallarının sənədləri göstərilməli idi;

■ dövlətdən mənzil almaq üçün bəzən 10-20 il növbə gözləyirdilər;

■ sahibkarlıq fəaliyyəti qadağan idi, gizlicə nəsə satanları tutub "alverçi" adı ilə məhkum edirdilər;

■ insanların fərdi ev tikmələri üçün (hətta "halal yol"la qazandıqlarını sübut edəndə belə) torpaq sahəsi əldə etmələri müşkül məsələydi;

■ bütün mağazalarda alış-veriş etmək üçün daim böyük növbələr olardı!

*Çoxsaylı qadağalar, həmin qadağaları pozmağa görə cinayət məsuliyyətinə cəlbetmələr hamını çərçivə daxilində yaşamağa məcbur edirdi.*

İNDİ İSƏ...

Azadlığımızın həddi-hüdudu yoxdur:

■ "Addımbaşı "market"lər, "ticarət mərkəzləri", üstəlik, nə vaxt gəlirsən, hamısı ağzınacan malla dolu və müştəri gözləyir;

■ geyim-kecimin növü, çeşidi, həcmi o qədərdir ki, hətta seçməkdə çətinlik törədir. Həm də hamısı "xarici mal" (artıq bu gün "xarici mal" ifadəsi gülməli səslənir);

■ nəinki bir ailə, hətta bir adam özünə istədiyi markada və istədiyi qədər minik avtomobili alır. Nə kimsədən qorxur, nə də kiməsə hesab verir;

■ bir adam özünə bəs qədər, hətta ölkənin müxtəlif guşələrində və xaricdə belə mənzil ala bilir. Öz işidir;

■ indi ikimərtəbəli fərdi evi tək-tük adam tikdirir.

Üç-beşmərtəbəli yaraşıqlı "villalar"ın sayı-hesabı yoxdur!

■ kim harada, nə qədər istəsə, torpaq alır. Təki pulu və arzusu olsun;

■ sahibkarlığa dövlət dəstək verir, əlverişli kredit ayırır, müxtəlif formada yardım göstərir.

**Təkcə ictimai-siyasi həyatda yox, məişətdə də müstəqilliyin yaratdığı imkan və şəraitdən bol-bol bəhrələnirik!**

**Odur ki, həyatımız daha gözəl, daha rahat, daha mənalı olub!**

## ORDUN VARSA, YURDUN VAR!

Napoleonun məşhur bir sözü var: "Öz ordusunu yedirtməyən dövlət özgə əsgərlərini saxlar!"

*Müstəqilliyi qorumaq, olanları mühafizə etmək üçün möhkəm və etibarlı orduya daim ehtiyac var!*

*Xüsusən də ərazisinin bir hissəsi işğalda qalan dövlətlər üçün!*

Milli Ordu həm də müstəqilliyin mühüm atributlarından biri sayılır!

Ərazisində özgə dövlətlərin hərbi bazası yerləşən, sərhədlərini başqa dövlətlərin əsgərləri qoruyan dövlətin özünü müstəqil sayması gülünc görünür!

Əgər evindən bayıra çıxmaqdan ötrü qonşudan icazə almalısansa, onda necə müstəqilsən?!

Vassal Ermənistan kimi!

**İlham Əliyevin Ali Baş Komandanlığı altında ən müasir silahlarla silahlanmış, təcrübəli və bilikli zabit korpusuna malik, təlim görmüş əsgərləri olan, dünyanın əlli ən güclü ordusu ilə bir sırada dayanan Milli Ordumuz var!**

Yeni yaradılan Müdafiə Sənayesi Kompleksi də Azərbaycan Ordusuna xidmət edir!

*Gözəl bir atalar sözü var: Ordun varsa, yurdun var!*

*Azərbaycan Ordusu nəinki müstəqilliyimizi, qazanılanları qorumaq, hətta Ali Baş Komandanın əmri ilə qısa müddətdə torpaqları işğaldan azad etmək qüdrətindədir!*

Bunu Aprel müharibəsi də göstərdi!

Bunu Naxçıvanın Günnüt əməliyyatı da sübut etdi!

**Bunu zaman da bir daha təsdiq edəcək - sülh danışıqlarının fayda verməyəcəyi təqdirdə!**

## İDMAN DÖVLƏT SİYASƏTİNƏ KÖMƏK EDİR

İdmançılar ölkə xaricində dövlət bayrağını qaldırmaq, himnini səsləndirmək imkanına malikdirlər!

Bu şərtlə ki, yarışlara milli komanda ilə, öz dövlətlərinin bayrağı altında çıxsınlar!

SSRİ-nin mövcudluğu dövründə Azərbaycan idmançıları müxtəlif yarışlarda ən yüksək nəticəyə nail olsalar da, heç zaman nə öz dövlətlərinin bayrağını ucaltdılar, nə də himnini səsləndirə bildilər!

Çünki yarışlara başqa komandanın tərkibində, özgə bayrağı ilə çıxırdılar!

Həqiqi müstəqillik Azərbaycan idmançılarına öz bayraqlarını ucaltmaq xoşbəxtliyini də nəsib etdi!

Bu gün ölkəmizdə idman həyatımızın ayrılmaz hissəsini təşkil edir.

*Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin səmərəli fəaliyyəti nəticəsində idman gənclər siyasətinin tərkib hissəsinə, müstəqil Azərbaycanın dünyaya yeni imicdə təqdiminin maraqlı formasına çevrilib!*

Tarixən qısa zamanda ölkəmiz I Avropa Oyunlarını və IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirmiş, dünya, Avropa, bir sıra beynəlxalq yarışlara evsahibliyi etmiş, idman yarışlarının mahir təşkilatçısı olduğunu sübuta yetirmişdir!

Bir vaxtlar xaricə idmançı göndərməyə vəsait tapmayan Azərbaycan indi ən yeni və möhtəşəm idman qurğularına sahibdir, yüz milyonlarla insanın izlədiyi "Formula-1" yarışlarının bacarıqlı təşkilatçısı kimi ad çıxarıb!

Bütün bunlar da dövlət müstəqilliyi sayəsində mümkün olub!

## QÜRUR ÜNVANIMIZ

**Müstəqil dövlətlə qürur duymaq, fəxr etmək azdır!**

**Onu qorumağı, gücləndirməyi, xain və məkrli niyyətlilərdən müdafiə etməyi də bacarmalıyıq!**

**Həm də vətənpərvər insan kimi buna borcluyuq!**

*Hələ də Azərbaycanın müstəqilliyini istəməyən qüvvələr var!*

*Hələ də Azərbaycanın müstəqil siyasət yeritməsini həzm edə bilməyən dövlətlər mövcuddur!*

*Hələ də Azərbaycanın güclənməsini, dünyanın sayılıb-seçilən, sözü eşidilən dövlətə çevrilməsini gözü götürməyənlər məkrli planlar qurmaqdadırlar!*

Bizim ən böyük uğurumuz iqtidarla xalqın birliyi, vəhdətidir!

Bizim ən böyük nailiyyətimiz ölkədə formalaşan möhkəm və dönməz sabitlikdir!

Bizim uğurumuz ildən-ilə iqtisadi gücümüzün, siyasi nüfuzumuzun artmasıdır!

**Bütün bunların təşkilatçısı Prezident İlham Əliyev, icraçısı Azərbaycan xalqının vətənsevər, millətsevər insanları, gəncləridir!**

*Bir an da dayanmaq, arxayınlaşmaq olmaz!*

*Ulu Öndər Heydər Əliyevin sözüdür: "Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir!"*

Düşmənə və xəbis niyyətlilərə yalnız birliyimiz, səmimi və səmərəli fəaliyyətimiz, Vətənə və dövlət müstəqilliyinə məhəbbətimiz və fədakar əməyimizlə qalib gələ bilərik!

Bu yolda hamı və hər kəs bacarığını əsirgəməməlidir!

**Bəxtiyar SADIQOV**

















◆ Görkəmli elm xadimləri

# Davamlı ənənələrin işığı

Əvvəli 1-ci səh.

Amma hiss edirəm ki, *bu insanı ilk dəfə mənə tanıdan, tanıyan kimi də doğmalaşdıran tamam başqa dəyərdir... Biz ikimiz də coğrafi Vətənlə yanaşı, həm də Ədəbiyyat adlı vətəndə doğulub boya-başa çatmışıq, söz bulağından su içmişik. Və ən etibarlı, ən sarsılmaz ünvanımız buradır. Elə bilirəm ki, İsa Həbibbəylini sinnimizin bu vaxtlarında deyil, dünyada ədəbiyyat adlı bir dəyərin mövcudluğu barədə xəbər tutduğum uşaqlıq illərimdən, o gözəl günlərdən tanımışam.*

❖ ❖ ❖

Sənətinin ustası olan insanları çox sevirəm...

Onların məşğul olduqları peşəyə sevgilərinə şahid olmaq, gördükləri işə necə məsuliyyətlə yanaşdıqlarını, ən kiçik detallara da həyati vacib məsələ kimi diqqət yetirdiklərini müşahidə etmək çox gözəldir. Elələri də var ki, onların öz sənətlərinə münasibəti sevgi mərhələsini də keçib, bu insanlar öz sənətlərinin bir parçasına çevriliblər artıq...

**İsa Həbibbəyli də çoxdandır ki, sadəcə ədəbiyyatşünas deyil, həm də ədəbiyyatın özüdür,** ədəbiyyatla iliklərinə qədər qaynayıb qarışmış əli qələmli adamdır...

Məşhur türk yazarı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Orxan Pamuk həmvətəni Əziz Nesin haqqında çox maraqlı bir xatirəsini bölüşür. Deyir, bir dəfə xaricdə səfərdə idik, axşam hərəmiz öz hotel odamıza çəkilmişdik. Yadıma düşdü ki, Əziz Nesinə nəsə kitabmı, ya sənədmi çatdırmalıyam, qapısını döydüm, o qapını açdı, gördüm ki, barmaqlarının arasında qələm var - mən qapını döyəndə masa arxasında nəsə yazırmış. Bir anlıq onun əlindəki qələmə diqqət yetirdim və mənə elə gəldi ki, qələm Əziz Nesinin əlində artıq altıncı barmağa çevrilib.

Hər dəfə İsa Həbibbəyli ilə söhbətə qapılıb ikilikdə qəvvas kimi ədəbiyyat dəryasının dərinliklərinə baş vuranda, onun ədəbiyyat haqqında danışarkən necə ruhlandığını, gözlərindən saçdığı alovu hiss edəndə, bu ruhun lətif meyvələri olan yazılarını oxuyanda o anı xatırlayıram və düşünürəm ki, qələm artıq İsa Həbibbəyli üçün də sadəcə bir yazı ləvazimatı deyil, cisminin, ruhunun bir parçasıdır...

❖ ❖ ❖

Hər gün səhərlər ölkədə çıxan nüfuzlu, hətta orta səviyyəli qəzetləri mütləq vərəqləyirəm. Belə vərəqləmə həm də bir axtarışdır: qəzetlərdə diqqətimi cəlb edən, ilk baxışdan maraqlı görünən hansısa yazı olarsa, dərhal ayırıb qovluğuma qoyuram ki, axşam evdə günün bitmək bilməyən cari işlərindən, aramsız telefon zənglərindən daha rahat, sakit bir vaxtda oxuya bilim. Amma deyim ki, həmişə belə etmək olmur. Bu qəzetlərin daimi müəllifləri sırasında çox az sayda elə imzalar var ki, onların hansısa yazısı gözümə dəyən kimi, necə deyərlər, əlimdə yağım da daşsa, gərək elə o an, dərhal oxuyum.

Onlar oxucunu gözləməyən, oxucunun hisslərinə hökm edən, oxunması təxirə salınmayan, birnəfəsə su kimi içilən yazılar, imzalardır. Və bu imzalardan biri də İsa Həbibbəylidir...

Ölkəmizin ictimai-siyasi həyatının müxtəlif məsələləri ilə bağlı **onun qələmə aldığı yazılar müasir siyasi publisistikamızın şah əsərləridir.** Azərbaycanın ən yeni tarixi ilə bağlı obyektiv baxışları əks etdirən çox məqalələr, kitablar yazılır. Onların hər biri özlüyündə çox dəyərlidir. İsa Həbibbəylinin qələmə aldığı publisistik mətnlərin əsas özəllikləri isə onların həm də elmi məzmun daşımasıdır. *Bir mətn daxilində həm püxtə qələmli publisist, həm də görkəmli alim baxışlarını əks etdirməsidir. Azərbaycanın dünəni, bu günü və gələcəyi ilə bağlı məsələlərə, tutduğumuz yola, vaxt axarında yaranan tarixə, həyata keçirilən siyasətə ötən əsrin əvvəllərində yaşamış maarifçi, alim və publisistlərimiz sayaq mütəfəkkircəsinə münasibət bildirməsidir.*

Uzun illərdir ki, onun yazılarının çox diqqətli oxucularındanam və tam məsuliyyətimlə deyirəm ki, **Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsi, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət haqqında elmi məzmunlu siyasi publisistikanın ən mükəmməl nümunələrini bu gün milli mətbuatımızda məhz İsa Həbibbəyli yaradır.**

**Onun ədəbi yaradıcılığı, tənqidçilik fəaliyyəti isə müasir ədəbiyyatşünaslıq elmimizin, yeni ədəbi mühitə, oxucu auditoriyasının xarakterinə, ehtiyaclarına uyğunlaşmış akademik üslubun etalonudur.**

Hansı mövzuda yazırsa-yazsın, *İsa Həbibbəylinin qələmə aldığı yazıların hər biri elə ilk cümləsindən dil-üslubunun şirinliyi, bulaq suyu kimi saflığı, duruluğu ilə adamın ruhunu oxşayır, yaddaşına hopur. O, ana dilimizin zənginliklərindən istifadə edərək qələmi ilə xariqələr, yaradır. Sözlərin, cümlələrin əlvan xalça naxışı kimi ilmə-ilmə düzülüşünə, bir-birini incəliklə tamamlamasına heyran olursan. Bu yazılardakı zahiri sadəlikdən açılan gözəllik aləmindən, fikir dünyasından düşüncələrini yayındıra bilmirsən.*

Oxuduqca oxuyursan, düşünürsən, öyrənirsən...

Çox istərdim ki, İsa Həbibbəylinin müəllifi olduğu yazılar ölkəmizdəki ali məktəblərin Jurnalistika fakültələrində öyrədici vəsait kimi tədris olunsun. Tələbələrə yazı texnikasını, bu sənətin incəliklərini öyrətməkdən ötrü bu dəyərli alimin yazılarından lazımınca istifadə edilsin. Çünki İsa Həbibbəylinin qələmə aldığı yazıların hər biri işlənmə forması, strukturu, ideya-məzmun xüsusiyyətləri, dil-üslub özəllikləri ilə hər bir gənc yazar üçün praktik dərs vəsaiti qədər faydalıdır.

❖ ❖ ❖

O, üçüncü çağırışdır ki, Azərbaycan Milli Məclisinin deputatıdır. Son 4 ildir Milli Məclisdə Elm və Təhsil Komitəsinə rəhbərlik edir. Özüm başqa komitədə təmsil olunsam da, elm, təhsil sahəsinə yaxın bir insan kimi bu komitə də mənim üçün doğmadır, fəaliyyətini həmişə xüsusi diqqətlə izlədiyim ünvandır. Müşahidələrimə əsaslanaraq deyirəm ki, *Milli Məclisin Elm və Təhsil Komitəsinin ən məhsuldar dövrü məhz İsa Həbibbəylinin bu komitəyə rəhbərlik etdiyi dövr olub. Bu dövrdə onun başçılığı və yaxından iştirakı ilə hazırlanmış, qəbul edilmiş qanun layihələrinin sayı, məzmunu, cəmiyyət üçün əhəmiyyəti, yəqin ki, bu qənaətimi təsdiqləyə bilər.*

İsa Həbibbəyli yalnız komitə sədri kimi təkcə qanun layihələrinin hazırlanması və ictimaiyyətə təqdim olunması ilə öz işini məhdudlaşdırmayıb. Həm də bu qanunvericilik sənədlərinin hər birinin ictimai müzakirəsini təşkil edib, cəmiyyətin onlar barədə rəyini öyrənib. Onu yaxından tanıyan insanlar bilir ki, başqa cür ola bilməzdi. Çünki İsa Həbibbəyli bu sənədlərin Azərbaycan insanının, Azərbaycan cəmiyyətinin gələcəyi ilə bağlı nə qədər böyük ictimai məsuliyyəti ehtiva etdiyinin fərqindədir. Ona görə də bu komitənin hazırlayıb təqdim etdiyi elə bir qanun layihəsi yoxdur ki, onun məzmununu akademik İsa Həbibbəyli şəxsən özü izah etməmiş olsun. O, ayrı-ayrı hüquqi yeniliklər ətrafında başlanan ictimai müzakirələrdə də fəal iştirak edir, yanlış anlaşılan hansısa məqamlara alim fəhmi, yüksək ziyalı etikası, ictimai xadim səbatı ilə dərhal aydınlıq gətirir. İstəyir ki, elm-təhsil sahəsində aparılan islahatların, qanunvericilikdə edilən dəyişikliklərin məramını, mahiyyətini, gələcək üçün yaratdığı dəyərləri hər kəs düzgün anlaya, qəbul edə bilsin, bu dəyişikliklər ümumum razılığını əks etdirsin.

İsa müəllim cəmiyyətdəki böyük nüfuzu, sözünün sanbalı, elm-təhsil çevrələrindəki rəy, təcrübə və media ilə sıx əməkdaşlığı sayəsində buna çox uğurla nail ola bilir.

Bu mənada, **İsa Həbibbəyli müasir Azərbaycan elminin, təhsilinin, ictimai fikrinin onurğa sütunlarındandır...**

❖ ❖ ❖

Ömürlüyü bir az da XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış maarifçilərimizi xatırladır: Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə və başqa dəyərli ziyalılarımızın həyatını. Onların həyat salnaməsini vərəqlədikcə görürsən ki, ayrı-ayrı dönəmlərdə müxtəlif şəhərlərdə yaşayıblar, ömürləri fərqli şəhərlərin maarifçi mühitində keçib. Əslində bu mühiti elə o ziyalılar yaradıb. Üzlərini o kəslərə tutublar ki, sözləri eşidilməyib. Amma yenə də deməkdən, yazmaqdan usanmayıblar. Ona görə həyat və yaradıcılığın ayrı-ayrı şəhərlərlə bağlı mərhələləri bu şəxsiyyətlərin irsinin elmi tədqiqində ən mühüm məqamlardan biri kimi mütləq nəzərə alınır.

İsa Həbibbəyli də ali məktəbi başa vurduqdan sonra Bakının elm-təhsil mühitindən sonra uzun illər Naxçıvanda yaşadı, Naxçıvan Dövlət Universitetinin rektoru kimi, bu ali təhsil ocağının bir çox nailiyyətlərinin, yüksələn reytinqinin müəllifi oldu. Sonra isə Bakıya gələrək fəaliyyətini Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru kimi davam etdirməyə başladı.

*İsa Həbibbəyli o adamlardandır ki, fitrətində sənətinə sevgi olan kamil bir bağban əli yetişən hər torpaq parçasını qısa müddətə gülüstana çevirdiyi kimi, o da olduğu bütün sahələrə varlığı ilə, tükənməz enerjisi ilə yeni nəfəs gətirməyi bacarır...*

Akademik İsa Həbibbəylinin gəlişi ilə AMEA-nın fəaliyyətinə bir çeviklik gəldi, onun vitse-prezident kimi kurasiya etdiyi ictimai-humanitar bölməyə aid elmi institutların fəaliyyətində canlanma yarandı. *Bu, İsa Həbibbəylinin məqsədyönlülüyündən, tələbkarlığından, insanları motivasiya etmək qabiliyyətindən, ən əsası isə məsuliyyətindən irəli gəlir.* O, yaxşı bilir ki, dövlət rəhbərliyinin həyata keçirdiyi siyasətə sadiqlik mücərrəd bir anlayış deyil, bu hər bir insanın öz işi-gücü, ona həvalə edilmiş vəzifədə vicdanla çalışması, gözləntiləri doğruldub ortaya qoyduğu real nəticələrlə bu siyasətə verdiyi töhfələrdir. Lap məşhur türk şairi Ziya Paşanın yazdığı kimi: "Ayinəsi işdir kişinin, lafə baxılmaz, Şəxsin görünər rütbeyi-əqli əsərindən..."

**Yaşı 70-ə yetsə də, onun köksündə müasir təfəkkürlü, yeniliklərə açıq, enerjisi bitib-tükənməyən bir gəncin qəlbi döyünür. İsa Həbibbəyli zamanla ayaqlaşmağı, yenilikləri tez bir zamanda mənimsəyərək tətbiq etməyi bacaran insanlardandır.**



Bu keyfiyyəti ilə o, sübut edir ki, yeniliklərə münasibətdə yaş bəhanədən başqa bir şey deyil. Yenilik birdən-birə qəfil axınla gəlmir və inkişafa meyilli hər bir insan çox asanlıqla özünü onlara uyğunlaşdıraraq özü də inkişaf prosesinin bir parçasına çevrilə bilər. Ətalətə qapılmış kəslər üçünsə yaşın heç bir fərqi yoxdur, onlar həmişə vaxtın ardınca sürünəcəklər.

Bu da bir həqiqətdir ki, *bütün cəmiyyətləri tərəqqiyə İsa Həbibbəyli kimi müasir düşüncəli, yenilikçi insanlar aparır...*

❖ ❖ ❖

**İsa Həbibbəyli ictimai fikir tariximiz üçün bir dəyərdir...**

*Onu bu mənziləyə yüksəldən heç də daşıdığı ali titullar, adlar, tutduğu yüksək vəzifələr deyil. İsa müəlliin öz şəxsiyyəti, əxlaqı, vicdanı ilə bu titulların, adların, vəzifələrin haqqını verməsidir, meyar yaratmasıdır.*

Akademiya deyəndə, akademik sözünü dilə gətirəndə həmişə yadımıza sovet dövründə yaşayıb yaratmış Yusif Məmmədəliyev, Həsən Əliyev, Məmməd Cəfər Cəfərov, Məmməd Arif, Məmmədağa Şirəliyev, Abbas Zamanov, Azad Mirzəcanzadə və başqa bu kimi alimlərimiz gəlib...

Bu gün İsa Həbibbəyli kimi alimlərimizin simasında bu nurlu şəxsiyyətləri görürük... *Akademik deyərkən, gözlərimiz önünə onların işıqlı simaları ilə yanaşı, həm də bu dəyərin canlı daşıyıcısı kimi İsa Həbibbəyli gəlir. İsa müəllim həyat və fəaliyyəti, təmsil etdiyi dəyərlər, mənəvi keyfiyyətləri ilə o irsi yaşadır, gələcəyə ötürür, yeni nəsillər üçün daha bir örnək yaradır.*

❖ ❖ ❖

Mən yazıçıyam. Doğrudur, dünyanın böyük yazıçılarının əsərlərini oxuyandan sonra özünə bu adı yaraşdırmaq hünər istər. Amma təvazökarlıq reallığı da dəyişmir: ad-soyadımı yazıçı imzası kimi qəbul edən bəlli bir oxucu auditoriyam illər ərzində formalaşıb, şükürlər olsun... Ona görə də ürəklənib, arasıra özümə yazıçı deyə bilirəm. Bir yazıçı kimi AMEA-nın Ədəbiyyat İnstitutu mənim üçün əsl məbəddir. Bu mənəvi məbəd ölkəmizdəki ədəbi proseslərə yön verir, qlobal ədəbi meyilləri diqqətlə izləyib onları cəmiyyətimizə çatdırır, ədəbiyyat tariximizin ən dərin qatlarını üzə çıxarıb bu misilsiz sərvətə yeni həyat bəxş edir.

*Bu institutu AMEA-nın çoxsaylı elmi-tədqiqat müəssisələrindən biri statusundan çıxarıb əsl ədəbiyyat məbədinə, mənim kimi yazı-pozu adamları üçün müqəddəs söz məkanına çevirən akademik İsa Həbibbəylidir.*

O, həyata keçirdiyi islahatlarla Ədəbiyyat İnstitutunun ab-havasını büsbütün dəyişib, burada yeni istiqamətlərin əsasını qoyub. Akademikin təşəbbüsü ilə Ədəbiyyat İnstitutunda yaradılmış Nizamişünaslıq, Azərbaycan mühacirət ədəbiyyatı, Ədəbi tənqid, Uşaq ədəbiyyatı, Mətbuat tarixi və publisistika, Azərbaycan-Asiya ədəbi əlaqələri, Beynəlxalq əlaqələr, Təhsil şöbəsi, Füzulişünaslıq bölməsi və bu strukturların hər birinin öz fəaliyyət istiqamətləri üzrə ortaya qoyduğu real nəticələr İsa Həbibbəylinin rəhbərlik etdiyi alimlər komandası ilə birgə ədəbiyyatşünaslıq elminin inkişafına, beynəlxalq elmi əlaqələrin genişlənməsinə, ədəbiyyatın, bədii sözün cəmiyyətimiz üçün bir dəyər kimi qorunması işinə zəngin töhfələridir.

İsa Həbibbəyli rəhbərlik etdiyi kollektivlə birgə bu nəticələrə ona görə nail ola bilir ki, təşkilatçılıq məharəti ilə yanaşı, yaradıcılığı ilə də digər alimlər üçün nümunə göstərir. Bir anlıq masamın üzərindəki faktlara diqqət yetirirəm, akademikin monoqrafiya, kitab və elmi məqalələrinin sayı 1500-dən artıqdır. Bu, alimin elmə fədakarcasına xidmətinə, yaradıcılıq ruhuna dəlalət edən çox nadir göstəricilərdəndir...

*İsa Həbibbəyli üçün də həyatın mənası nəcib işdə, insanlara, cəmiyyətə fayda verən əməldədir. Təkcə iki faktı deyim ki, müstəqillik dövrü Azərbaycan Milli Elmlər Akademiyasının yeni nizamnaməsi məhz İsa Həbibbəylinin sədrliyi ilə hazırlanıb və təsdiq olunub. Azərbaycançılıq konsepsiyasının hazırlanıb çap olunması da akademikin adı ilə bağlıdır.* Bu məqamda bir faktın üzərində xüsusi dayanmaq istəyirəm.

Yaxınlarda *İsa Həbibbəylinin yeni, uzun və gərgin axtarışlarının nəticəsi olan daha bir kitabı işıq özü gördü. "Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" adlanan bu kitab məxəzdir, özündə bütün ədəbiyyat zamanlarının ritmini, ahəngini daşıyır. İsa Həbibbəyli bu əsəri ilə müstəqillik illərinin ilk mükəmməl dövrləşdirmə konsepsiyasını yaratdı.* Kitabda dünəndən bu günə, bu gündən sabaha gedən magistralın ən gözəl örnəkləri nişan verilir. Bu fundamental kitabı oxuduqca İsa Həbibbəylinin ədəbi faktlara necə ehtiyatla yanaşmasını, hər faktla bağlı sistemli və geniş tədqiqlərə varmasını görüb şahid oluruq, həm də akademikin genişmiqyaslı təfəkkür və fəaliyyət dairəsinə. Bu kitabında da İsa Həbibbəyli ənənəsinə sadiqdir, böyük ənənələrin davamçısı olduğunu sübut edir. Çünki burada həm özündən əvvəlki söz sahiblərinin ədəbiyyat tarixi ilə bağlı araşdırmalarına ehtiram yer alır, həm də onların yeni gözlə oxunub dərk və şərh edilməsində həmin ənənədən gələn işığın özü qorunaraq yeni üfüqləri müəyyən etməkdə İsa Həbibbəyli üçün bələdçiyə çevrilir. Bu belə də olmalı idi. Təməlsiz ideyadan doğan elmi qənaət özünü doğrultmazdı və "Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" kitabının da əsas özəlliyi budur ki, ədəbi irsin layiqli əllərdə olduğunu, azərbaycançılıq ideologiyasına müəllif ehtiramını layiqincə ifadə edir.

❖ ❖ ❖

**İsa Həbibbəyli çox sədaqətli, əqidəsində sabit insandır.**

*O, yüksək sədaqət hissini bütün münasibətlərdə qoruyub saxlamağı bacarır: dostluqda da sədaqətlidir, prinsiplərində də, dəyərlərə münasibətində də... Bu keyfiyyəti onu tanıyan hər kəsdə böyük rəğbət doğurur.*

**İsa Həbibbəyli xalqımızın Ümummilli Lideri Heydər Əliyev ideallarına, bu böyük strateqin milli dövlətçilik irsini uğurla davam etdirərək dövlətimizi zamanın ən qüdrətli məqamına yetirmiş Prezident İlham Əliyevin siyasi xəttinə hər zaman sadiq olub.**

**Onun Əliyevçilik irsinə sədaqəti ötən əsrin 80-90-cı illərinin çətin sınaqlarından şərəflə çıxan əsl kişilik dəyəridir. Heydər Əliyev təqib olunanda, onun adını çəkmək yasaqlananda Naxçıvan Dövlət Universitetinin müəllimi olan İsa Həbibbəyli çəkinmədən əliyevçilərin və mübarizənin ön sırasında dayananlardan biri idi...**

O, bu yüksək sədaqət hissini sadəcə daşımır, həm də böyük sevgi və qürur hissi ilə təbliğ edir, yazılarında, kitablarında elmlə ideologiyanın, siyasi baxışların uğurlu vəhdətini yaradır, dövlət rəhbərliyinin həyata keçirdiyi siyasətə müdrik münasibəti ilə insanlarda aydın rəy formalaşdırır.

İsa Həbibbəylinin bu sədaqət hissini iki böyük əsərinə - böyüdüb boya-başa çatdırdığı övladları Səhət və Ərəstü Həbibbəylilərə ötürməsini, onların da eyni əqidənin daşıyıcısı, təbliğatçısı olmalarını görmək o qədər qürurverici hissdir ki... İsa müəllimin ocağından çıxmış saleh övladlar atalarının yoluna - Əliyevçilik irsinə və dövlətçilik amalına canları-qanları ilə bağlıdırlar. Onların da ataları kimi tutduqları yola, daşıdıqları əqidəyə, malik olduqları dəyərlərə daim sadiq qalacaqlarına adım kimi əminəm...

Çünki bu keyfiyyət ocaqdan gəlir...

O ocaq ki...

❖ ❖ ❖

...Bir neçə il öncə Naxçıvana səfərdə ikən İsa Həbibbəylinin Dan yeri kəndindəki ata evində qonaq olmuşduq və bu məqamları səfər təəssüratlarımda da qələmə almışdım. İsa müəllimgil 5 qardaşdırlar, hamısı da kənddə sadə və yaraşıqlı ev tikdirib. Bu ailənin həyətində indiyə qədər heç yerdə görmədiyim qədər ağaclar vardı. Bütün bunlar, Naxçıvan insanlarının torpağa, yurda bağlılığından irəli gəlir, bu öz yerində. Diqqəti çəkən ən mühüm cəhət isə bu evlərin heç birinin arasında çəpərin, hasarın olmaması idi. Həyatda qardaşlar arasında çox hasarlar gördüm, mal-mülk üstündə çox qardaş davalarına şahid oldum. İsa müəllim və qardaşları isə hasarları ixtisara salmaqla ata yurdunun ərazisini bir az da genişləndiriblər. Yer üzünün başdan-başa sərhədlərlə bölündüyü, kimlərinsə beş qarışlıq yeri belə çəpərləyib mənimsəməyə çalışdığı indiki dövrdə bu mənzərə məni çox duyğulandırdı.

İsa müəllimin yaşı doxsana yaxınlaşmış anası Qəndab xanımla görüşümüz, ünsiyyətimiz isə səfərimizin, demək olar ki, ən yaddaqalan məqamlarından idi. *Sinəsi söz boğçası olan əsl el ağbirçəyi, müdrik Ana abidəsini elə söhbətimizin ilk dəqiqələrindən titulsuz akademik adlandırdım, sözündən-söhbətindən doymaq bilmədim. Adamı mütəəssir edən - dünyanın hər üzünü, min bir əziyyətini, elin çətin günlərini, yaxşı günlərini görmüş bu ixtiyar qadının ədaləti, Heydər Əliyev irsinə, İlham Əliyevin apardığı siyasətə doxsan ilə yaxın həyat təcrübəsi işığından verdiyi obyektiv qiyməti, bu böyük dövlət adamlarına şükranlıq duyğuları, dövlət rəhbərimizin uğurunun həmişə xeyir olması üçün titrək əlləri ilə Tanrıya ünvanlanmış duaları idi.* Bu, İsa Həbibbəylinin, ya başqa övladların təsiri deyildi əsla, hətta fikirləşdim ki, övladların əqidəsi, haqqa-ədalətə sadiqliyi bu ananın südündən, bu ocağın halallığından gəlir...

*Azərbaycan Prezidentini güclü edən, siyasət meydanındakı min bir fitnə-fəsadlardan qoruyan, həyata keçirdiyi siyasəti həmişə öz hədəflərinə, məqsədlərinə çatdıran həm də Qəndab ana kimi ağzıdualı ağbirçəklərimizin, ağsaqqallarımızın alqışlarıdır, dua-sənalarıdır...*

❖ ❖ ❖

İsa Həbibbəyli Əkbər müəllimin, Qəndab ananın övladıdır. Azərbaycanın ziyalı mühitində isə hər kəs onu böyük ədib Cəlil Məmmədquluzadənin mənəvi övladı kimi tanıyır. Çünki tədqiq etdiyi ədəbi şəxsiyyəti bir ədəbiyyatşünasa ancaq övladlıq sevgisi, övladlıq borcu bu qədər doğmalaşdıra bilər.

İsa Həbibbəylinin Mirzə Cəlil haqqında çox yazılarını oxumuşam, çox söhbətlərini dinləmişəm, çox fədakarlığına şahid olmuşam və hər dəfə də anlamışam ki, bu, sadəcə alim, tədqiqatçı marağı deyil, övladın öz valideyninə sevgisidir, aşiqliyidir, onun xatirəsi qarşısında yerinə yetirmək istədiyi mənəvi öhdəlikdir, övladlıq haqqıdır...

Viktor Andriyanovla birlikdə yazdığım "İlham Əliyev" kitabımın "Körpülər" adlanan V fəslinin "Gələcəyə yolu yalnız məktəb açır" bölümündə akademik İsa Həbibbəylinin Cəlil Məmmədquluzadə ilə bağlı gördüyü xidmətlər və bu yöndə Ümummilli Liderimiz Heydər Əliyevin rolunu ayrıca tədqiq etmişdim. Böyük yazıçı-dramaturqun əsərlərinin tam şəkildə tədqiqi, nəvəsi Teymurla bağlı İsa Həbibbəylinin axtarışları və Heydər Əliyevin bu məsələyə xüsusi diqqət və marağını böyük həyəcan və rəğbət hissi ilə yazıya almışdım. İsa Həbibbəylinin ona gələn məktubun ardınca Tehrana, Cəlil Məmmədquluzadənin nəvəsi Teymurla görüşməyə getməsi, bu istiqamətdə davamlı fəaliyyəti sənətə və sənətkara olan böyük sevginin gücü idi! Və bu müşahidə məndə belə bir qənaəti formalaşdırıb: əgər İsa Həbibbəylinin damarlarında atası Əkbər kişinin qanı axırsa, ruhunun işığı, qələminin mürəkkəbi də mənəvi atası Mirzə Cəlildən, eləcə də eyni övlad sevgisi ilə bağlı olduğu digər mütəfəkkirlərimizdən gəlir. O şəxsiyyətlərin işığı, irsi bu gün İsa Həbibbəylinin simasında yaşayır...

Akademik İsa Həbibbəyli böyük maarifçilərimizin görmək istədikləri, arzu etdikləri Azərbaycanın tanınmış ziyalısıdır, alimidir, millət fədaisidir. Azərbaycan ziyalılığının aparıcı simalarından biridir.

Bu gün o, həm də müstəqil dövlətimizin və Əliyevçilik irsinin xidmətində şərəflə, məsuliyyətlə dayanmağın nümunəsini göstərməkdə davam edir.

*Prezident İlham Əliyev tərəfindən Vətənə xidmətin ən ali səviyyəli mükafatı ilə təltif edilməsi də əslində, "Şərəf"li, "Şöhrət"li İsa Həbibbəyliyə külli Azərbaycanın ehtiramının, şəxsiyyətinə verdiyi yüksək dəyərin, gələcək fəaliyyətinə xeyir-duasının təntənəsidir...*

**Hüseynbala MİRƏLƏMOV,**
***Milli Məclisin deputatı***

# Prezident yeni prioritetləri elan etdi

## İlham ƏLİYEV: "Əsas vəzifə iqtisadi artımı daha da yüksək rəqəmlərə qaldırmaq və islahatları davam etdirməkdir"

Əvvəli 1-ci səh.

Ümumiyyətlə, cari ilin ötən dövrünün yekunları Azərbaycanda iqtisadi inkişafla bağlı elan olunan prioritetlərin reallaşaraq həyata vəsiqə aldığını göstərir. Bunu şərtləndirən əsas amil ölkə iqtisadiyyatının bütün sahələrində, əsasən də qeyri-neft sektorunda artımın baş verməsidir. Elə bu məqam da Azərbaycanda iqtisadi inkişafın hər hansı bir sahə üzrə köklənməyərək kompleks xarakter daşıdığını yenidən bariz şəkildə təsdiq edir. Daha bir mühüm cəhət isə ondan ibarətdir ki, 9 aylıq yekun ölkə rəhbərliyinin qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirdiyi siyasətin özünü doğrultduğunu konkret faktlar əsasında təsdiqləyir. Belə ki, hesabat dövrü ərzində iqtisadiyyatın qeyri-neft sahəsinin inkişafında yeni artım var. O cümlədən qeyri-neft sənayesi də artım nümayiş etdirir.

İqtisadi məsələlərə həsr olunmuş iclasda İlham Əliyev 9 ayın göstəricilərini müsbət qiymətləndirib, bununla belə daha yüksək artıma nail olmaq üçün kifayət qədər imkanların olduğunu bəyan edib: *"Doqquz ayın sosial-iqtisadi göstəriciləri müsbətdir. İqtisadi artım təmin olunub. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu, onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir. Əlbəttə, biz istərdik ki, artım daha da yüksək olsun. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar, potensial var. Sadəcə olaraq, biz bu potensialdan maksimum səmərə ilə istifadə etməliyik. Yenə də qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu, onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər".*

### Neqativ hallara qarşı mübarizə gücləndirilir

İclasda Prezidentin qaldırdığı aktual məsələlərdən biri də neqativ hallarla bağlı oldu. Vergi hər bir dövlətin və onun sosial-iqtisadi sabitliyinin əsas vasitələrindən biridir. Müasir iqtisadi şərait, biznes mühiti, xüsusən iqtisadiyyatın strukturunda baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri digər vacib məsələlərlə yanaşı, vergi ödənişlərinin də tam həyata keçirilməsini tələb edir. Çünki vergilərin tam ödənilməsi ölkənin inkişafı, insanların sosial rifahının yaxşılaşdırılması, müdafiə qabiliyyətinin artırılması kimi strateji məsələləri özündə ehtiva edir.

Təsadüfi deyil ki, vergi və gömrük orqanları 9 ayda büdcəyə plandan əlavə 700 milyon manatdan çox vəsait daxil ediblər. Bu da hər iki sistemdə aparılan islahatlar və şəffaflıqla bağlı addımların öz səmərəsini verdiyini göstərir. Bu vəsait öz növbəsində il ərzində iki dəfə mühüm sosial qərarların verilməsini, minimum əməkhaqqının, pensiyaların, dövlət orqanlarında çalışanların məvaciblərinin artırılmasını şərtləndirdi. Amma təəssüf ki, vergidən yayınma halları qalmaqdadır. "Bu gün də hələ bir çox şirkətlər vergiləri tam ödəmirlər. Onların qara mühasibatlığı var" deyən dövlət başçısı iclasda bununla bağlı bütün aidiyyəti qurumlara bir daha ciddi tapşırıq verdi. Təbii ki, hər bir şirkət, sahibkar Prezidentin bu sözlərindən nəticə çıxarmalı, cinayət məsuliyyətinə cəlb edilməməsi üçün qanuni şəkildə vergiləri ödəməlidir. Prezidentin qeyd etdiyi kimi, bu vergilər hesabına sosial layihələr icra olunur, məcburi köçkünlər mənzillə təmin edilir, ordumuz gücləndirilir.

### Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır

Prezident vergi sistemini misal gətirməklə göstərdi ki, istənilən sahədə islahat aparmaq və vəziyyəti kökündən dəyişmək mümkündür. "Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz" deyən İlham Əliyev gələn ilin dövlət büdcəsinin hazırlanması ilə də bağlı mühüm tapşırıqlar verdi, qarşıdakı həftələr ərzində büdcə parametrləri ilə əlaqədar çox fəal iş aparılmasının vacibliyini bildirdi.

Dövlət başçısı gələn ilin büdcə layihəsinin hazırlanması prosesində sərt tələblər də qoydu. Dövlət orqanları büdcə xərclərinin müəyyən edilməsi zamanı şişirdilmiş deyil, real rəqəmlər verməli, hər bir istiqamət üzrə xərci əsaslandırmalı, dövlət və ictimai nəzarət gücləndirilməlidir. Prezident şişirdilmiş rəqəm verənlərin cəzalandırılacağını bəyan etdi: "O rəqəmləri verənlər gərək məsuliyyət daşısınlar. Əgər bu dəfə bizim dövlət qurumlarımız, şirkətlərimiz yenə də şişirdilmiş rəqəmlər versələr, artıq özlərini ifşa etmiş olacaqlar. Hökumət əlbəttə ki, onların bütün təkliflərinə baxacaq. Amma onlar əgər şişirdilmiş rəqəmləri versələr, öz cəzalarını alacaqlar. Ona görə zəhmət çəkib normal işləsinlər və pis vərdişlərdən əl çəksinlər".

Qeyd edək ki, gələn ilin dövlət büdcəsinin ilkin parametrləri, gəlir və xərclərinin həcmi artıq ictimaiyyətə açıqlanıb. Yaxın vaxtlarda dövlət büdcəsi Milli Məclisdə müzakirəyə çıxarılacaq. Artıq məlum olduğu kimi, 2020-ci ilin büdcəsi həm sosialyönümlü, həm də investisiyayönümlü olacaq. Xüsusən sosial xərclərin həcmi əhəmiyyətli dərəcədə artırılır. Bu da onu göstərir ki, sosial məsələlər yenə də prioritetdir və həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Gələn ilin dövlət büdcəsi isə istər sosial, istərsə də iqtisadi sahədə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə, həyata keçirilən islahatların vaxtında və səmərəli icra edilməsinə maliyyə təminatı yaradacaq.

Bütövlükdə Prezident İlham Əliyevin yanında oktyabrın 15-də keçirilən iqtisadi müşavirə aktual məsələlərin müzakirəsi və cəmiyyətə verilən mühüm mesajlarla yadda qaldı. Eyni zamanda iclasda da qeyd olunduğu kimi, daha sürətli inkişaf və daha yüksək makroiqtisadi göstəricilərə nail olmaq üçün potensial böyükdür. Bu baxımdan "Əsas vəzifə iqtisadi artımı daha da yüksək rəqəmlərə qaldırmaq və islahatları davam etdirməkdir" deyən Prezident yeni prioritetləri müəyyən etdi, hökumət qarşısında konkret və mühüm vəzifələr müəyyənləşdirdi. Sözsüz ki, bu vəzifələr qarşıdan gələn dövrlərdə yeni və daha yüksək inkişaf göstəricilərinin əldə olunmasını müvəffəqiyyətlə təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yüz milyon tirajla yayılan "China Daily" qəzeti AZƏRTAC-ın İdarə Heyəti sədrinin analitik məqaləsini dərc edib




Yüz milyon tirajla yayılan, dünyanın ingilisdilli ən məşhur qəzetlərindən biri olan "China Daily" Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanovun "Siyasətdə varislik: Azərbaycanın taleyini və simasını dəyişən 26 il" sərlövhəli analitik məqaləsini dərc edib.

Məqalədə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda xaos və anarxiyanın, dərin siyasi-iqtisadi böhranın, vətəndaş qarşıdurmasının, qeyri-sabitlik və ümidsizliyin müşahidə olunduğu bir vaxtda - 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ötən 26 ildə Azərbaycanın keçdiyi inkişaf yolu təhlil edilir. Qeyd olunur ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev ölkənin çətin vaxtında dövlət idarəetməsinin sükanı arxasına keçərək müdrikliyi və fitri idarəetmə istedadı sayəsində ölkəni dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas etdi, ictimai-siyasi sabitlik yaratdı. Azərbaycanın tarixində yeni səhifə açan bu 26 illik dövr həyatın bütün sahələrində misilsiz inkişafla səciyyəvidir.

Azərbaycanda milli siyasi doktrinanın varisliyi barədə geniş təsəvvür yaradan məqalə oxucuları əsası 1993-cü ildə Heydər Əliyev tərəfindən qoyulmuş strateji kursun hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi və bunun real nəticələri haqqında məlumatlandırır.

Məqalədə, həmçinin Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 16 ildə həyatın bütün sahələrində baş verən misilsiz irəliləyişlərdən, köklü islahatlardan bəhs olunur. Müəllif Azərbaycanın ictimai-siyasi sabitlik əmsalına, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə postsovet məkanında lider ölkə olduğunu, eləcə də ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan transmilli energetika və nəqliyyat layihələrinin əhəmiyyətini oxucuların diqqətinə çatdırır. Həmçinin 2016-cı ildə Prezident İlham Əliyevin himayəsi, birinci xanım Mehriban Əliyevanın dəstəyi, Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakının Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına yüksək səviyyədə evsahibliyi etdiyini xatırladır. (Məqaləyə keçid: https://www.chinadaily.com.cn/a/201910/16/WS5da6c7f8a310cf3e35570d75_1.html)

Qeyd edək ki, ümumilikdə 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" təkcə Çində deyil, regionda, eləcə də dünyada ingilis dilində nəşr edilən ən nüfuzlu qəzetlərdən biridir. Qəzetin xarici ölkələrdəki oxucularının sayı yerli oxuculardan daha çoxdur. Bu da onun qlobal nəşr olduğunun göstəricisidir.

AZƏRTAC ilə "China Daily" arasında əməkdaşlığa dair anlaşma agentliyin İdarə Heyətinin sədri Aslan Aslanovun Şanxay Əməkdaşlıq Təşkilatının birinci Media Sammitində iştirak etmək üçün ötən ilin iyununda Pekinə səfəri çərçivəsində qəzetin rəhbərliyi ilə görüşündə əldə olunub. O vaxtdan bəri AZƏRTAC və "China Daily" Azərbaycan və Çinin ictimai-siyasi, iqtisadi, mədəni həyatında və digər sahələrdə baş verən mühüm yeniliklər barədə mütəmadi informasiya mübadiləsi aparırlar.

Qəzet ilə sıx əməkdaşlığına, iki ölkə arasında informasiya mübadiləsindəki fəallığına, qəzetin həyata keçirdiyi layihələrdə fəal iştirakına görə AZƏRTAC-a "China Daily" tərəfindən "Fəxri beynəlxalq media tərəfdaşı-2019" mükafatı təqdim olunub.






# Bələdiyyə seçkilərinin təyin edilməsi, namizədlərin irəli sürülməsinin əsasları və qaydaları

Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə əsasən yerli özünüidarəni həyata keçirən bələdiyyələr seçkilər əsasında formalaşır. Seçki Məcəlləsinin müvafiq normasının tələbinə görə bələdiyyələrin səlahiyyət müddəti 5 ildir, həmin müddətin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə seçkilərinin təyin edilməsi barədə qərar Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən qəbul edilir və səsvermə gününə azı 60 gün qalmış rəsmi dərc olunur.

Azərbaycanda 2014-cü ildə keçirilən seçkilərdə seçilmiş bələdiyyə üzvlərinin səlahiyyət müddəti başa çatmaq üzrədir. Bu isə növbəti bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi ilə bağlı qanunvericiliklə müəyyən olunmuş müvafiq addımların atılmasını zəruri edir. Seçkilərin təyin olunması barədə qərar rəsmi dərc edildikdən sonra bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi başlanır ki, bu da seçki prosesinin çox mühüm mərhələsi sayılır.

Ölkəmizdə yerli özünüidarəni həyata keçirən bələdiyyələrə keçiriləcək seçkilərdə vətəndaşlar özlərinin aktiv və passiv seçki hüququndan istifadə edərək ölkə üzrə 1606 bələdiyyə tərkibini formalaşdıracaq.

Müvafiq seçki dairəsində daimi yaşayan və seçkilərdə iştirak etmək hüququna malik olan Azərbaycan Respublikasının vətəndaşı qanunla müəyyən edilmiş qaydada bələdiyyə üzvü seçilə bilər. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə görə (ağır və xüsusi ilə ağır) məhkum olunmuş şəxslər, ikili vətəndaşlığı olan Azərbaycan Respublikasının vətəndaşları yerli özünüidarə orqanlarına seçilmək hüququndan məhrumdurlar. İkili vətəndaşlıq şəxsin eyni zamanda iki və daha artıq dövlətin vətəndaşı olmasını ifadə edir. Həmin vətəndaşlar eyni anda bir neçə dövlət qarşısında hüquq və vəzifələrə malik olurlar. Belə olan halda vətəndaş ikili vətəndaşlığı olan müddət ərzində passiv seçki hüququndan istifadə edə bilməz.

Bundan başqa, xarici dövlətlər qarşısında öhdəlikləri olan vətəndaşlar da bələdiyyə seçkilərində namizəd ola bilməzlər. Belə ki, xarici dövlətdə yaşamaqla bağlı əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərin mövcudluğuna səbəb olan qeydiyyat, vergi, ölkə ərazisini müəyyən müddətdən artıq tərk etməmək və s. kimi amillər vətəndaşın xarici dövlət qarşısında öhdəliklərinin yaranmasına səbəb ola bilər. Vətəndaşın xarici ölkə qarşısında yaranmış siyasi və hüquqi öhdəlikləri onun seçkili orqanlarda təmsil olunmaq imkanını əlindən alır. Belə statuslu vətəndaşlar başqa ölkə qarşısındakı öhdəliklərinə xitam verilənədək seçkili orqanlara seçilmək hüququndan istifadə edə bilməzlər.

Konstitusiyanın 56-cı və Seçki Məcəlləsinin 14-cü maddələrinin tələbinə əsasən, hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə), hakimlər (hakim olduqları müddətdə), dövlət qulluqçuları (dövlət qulluğunda olduğu müddətdə), din xadimləri (peşəkar dini fəaliyyətlə məşğul olduqları müddətdə) tutduqları vəzifələrinə görə bələdiyyə üzvü ola bilməzlər.

Bələdiyyə üzvlüyünə namizədlər seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra passiv seçki hüququna malik olan vətəndaşlar öz təşəbbüsü ilə, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülürlər.

Öz təşəbbüsü ilə bələdiyyə üzvlüyünə namizədliyini irəli sürən vətəndaş namizədliyin irəli sürülməsinə dair bildirişi və namizədin bələdiyyə üzvü seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizəni müvafiq dairə seçki komissiyasına göndərir. Ərizədə onun tərcümeyi-halına aid məlumatlar (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü)) göstərilir. Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı, Azərbaycan Respublikasının vətəndaşlığı



haqqında məlumatla yanaşı, xarici ölkə vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması da göstərilməlidir. Namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin olunubsa, həmin səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi, namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd təqdim etməlidir.

Bələdiyyə seçkilərində namizəd seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülərsə, bu zaman müəyyən edilmiş müvafiq qaydalara əməl edilməlidir. Belə ki, müvafiq seçki dairəsinin ərazisində yaşayan seçicilər təşəbbüs qrupunu yaratmaq istədikdə öz yığıncağını keçirməli, həmin yığıncaqda seçicilərin təşəbbüs qrupunun yaradılması və adlandırılması, təşəbbüs qrupunu təmsil edəcək şəxsin (təşəbbüs qrupunun nümayəndəsinin) müəyyən edilməsi, namizədin irəli sürülməsi və namizədliyin irəli sürülməsinin təsdiqi üçün dairə seçki komissiyasına bildirişlə müraciət olunması məsələsi həll edilməlidir. Təşəbbüs qrupunun iclası müvafiq qaydada protokollaşdırılmalıdır.

Bələdiyyə üzvlüyünə namizəd seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürüldükdə müvafiq dairə seçki komissiyasına seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədin irəli sürülməsi barədə yığıncağın protokolu, seçicilərin təşəbbüs qrupu tərəfindən bələdiyyə üzvlüyünə namizəd irəli sürülməsi haqqında bildiriş, öhdəlik ərizəsi təqdim edilir.

Seçkilərdə namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz nizamnaməsinə uyğun olaraq kollegial qaydada qəbul edir. Eyni zamanda siyasi partiyalar bələdiyyə seçkilərinə blok şəklində də qoşula bilərlər. Seçkilərdə siyasi partiyaların bloku qismində iştirak etmək istəyən iki və daha artıq siyasi partiya blokun qeydə alınması məqsədi ilə MSK-ya bloka daxil olan siyasi partiyaların nizamnamələrinin notariat qaydasında təsdiq edilmiş surətlərini, siyasi partiyaların bloka daxil olmaq haqqında qərarlarını, blokun yaradılması haqqında siyasi partiyaların səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış və həmin partiyaların möhürləri ilə təsdiqlənmiş birgə qərarını təqdim edirlər.

Təqdim edilən sənədlərə ən geci 5 gün müddətində baxıldıqdan sonra siyasi partiyalar blokunun qeydə alınıb-alınmaması barədə qərar qəbul edilir. Həmin sənədlər düzgün rəsmiləşdirilmədikdə, tam olmadıqda və ya Seçki Məcəlləsinin tələblərinə uyğun gəlmədikdə siyasi partiyalar blokunun qeydə alınmasından imtina edilə bilər. Siyasi partiyaların bloku qeydə alındıqdan sonra onun tərkibinə hər hansı digər siyasi partiya daxil ola bilməz, siyasi partiya blokunun tərkibinə daxil olan siyasi partiyanın blokun fəaliyyəti dövründə seçkilərdə müstəqil partiya kimi çıxış etməsi yolverilməzdir.

Siyasi partiyaların blokları tərəfindən namizədin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında qəbul edilir və siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokuna daxil olan partiyaların üzvü olmayan şəxslər də seçkilərdə namizəd kimi irəli sürülə bilər.

Siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surətini, siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surətini, namizədin irəli sürülməsi barədə siyasi partiyanın yığıncağının qərarını və protokolunu, siyasi partiyanın səlahiyyətli nümayəndələrinin rəsmiləşdirilmiş vəkalətnamələrini təqdim edir.

Namizəd siyasi partiyaların bloku tərəfindən irəli sürülərsə, siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların yığıncağının namizəd irəli sürmək barədə qərarları ilə birlikdə iclasların protokolları, siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların nümayəndələrinin yığıncaqlarının siyasi partiyaların bloku adından namizəd irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin notarial qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri səlahiyyətli nümayəndə tərəfindən müvafiq dairə seçki komissiyasına göndərilir. Qeyd edilən sənədlərlə yanaşı, namizədin seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam veriləcəyi barədə öhdəliyi də göstərilməklə, namizədliyinin irəli sürülməsinə razılıq verməsi barədə ərizə də təqdim edilir. Ərizədə namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, o cümlədən tutduğu vəzifə (bu olmadıqda - fəaliyyət növü), namizədin arzusu ilə siyasi partiyaya mənsubluğu göstərilir. Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizəyə bu barədə Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada məlumat daxil edilir.

Dairə seçki komissiyasına namizəd, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar və siyasi partiyaların bloku tərəfindən təqdim edilmiş sənədlərə 5 gün müddətində baxılır və namizədin təsdiq olunub-olunmaması barədə qərar qəbul edilir. Əgər komissiya irəli sürülmüş namizədin təsdiq olunmasından imtina edərsə, bu barədə əsaslandırılmış qərar qəbul etməlidir.

Həmin qərardan maraqlı subyektlər qanunla müəyyən edilmiş qaydada və müddətdə MSK-ya şikayət edə bilərlər. Namizədin təsdiq olunması barədə qərar qəbul edildikdən sonra seçicilərin imzalarının toplanması üçün imza vərəqələri namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, namizəd siyasi partiya və ya siyasi partiyalar bloku tərəfindən irəli sürülmüşdürsə, onların səlahiyyətli nümayəndəsinə təqdim edilir. İmza vərəqələrini götürən namizəd və ya səlahiyyətli nümayəndə hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.

Yuxarıda qeyd edilən seçki prosesləri başa çatdıqdan sonra bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması mərhələsi başlayır.

Hazırda növbəti bələdiyyə seçkiləri ərəfəsindəyik. İnamla demək olar ki, indiyədək Azərbaycanda keçirilən digər seçkilər kimi, növbəti bələdiyyə seçkiləri də azad, ədalətli və şəffaf şəkildə keçirilməklə ölkəmizin tarixində özünəməxsus yer tutacaqdır.

***Arifə MUXTAROVA,***
***Azərbaycan Respublikası***
***Mərkəzi Seçki Komissiyasının katibi***

# MSK-nın ixtisaslaşdırılmış kurslarına yekun vurulub

45 saylı Abşeron seçki dairəsinin inzibati binasında Prezident İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na uyğun olaraq, "Seçici siyahıları ilə işin aparılması, seçkiqabağı təşviqatın aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması və. s bu kimi istiqamətdə yerli icra və bələdiyyə qurumlarının rolu və onların seçki komissiyaları ilə səmərəli qarşılıqlı əlaqələrin qurulması" mövzusunda keçirilən üçgünlük kurslara yekun vurulub. Aşağı seçki komissiyaları üzvlərinin bələdiyyə seçkiləri ilə bağlı müxtəlif istiqamətlərdə maarifləndirilməsi məqsədi daşıyan kurslarda 45 saylı Abşeron seçki dairəsi üzrə sədr, katiblər, üzvlər və məntəqə seçki komissiyalarının sədrləri iştirak ediblər. Yekun tədbirə MSK üzvü Ramiz İbrahimov, sektor müdiri Ziya Atəşli, Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini İlham Quluyev də qatılıb.

AZƏRTAC xəbər verir ki, iclasda mövzu ətrafında təqdimatlar keçirilib və müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

Məntəqə seçki komissiya üzvlərinin marağına səbəb olan ixtisaslaşdırılmış kursların sonuncu günündə iştirakçılara müvafiq tövsiyələr verilib, onların sualları cavablandırılıb.

* * *

Azərbaycanda seçkilərin demokratik keçirilməsi üçün zəruri ictimai-siyasi sabitlik, beynəlxalq təcrübəyə söykənən mütərəqqi hüquqi baza mövcuddur. Ölkəmizdə seçki təcrübəsi ildən-ilə təkmilləşdirilir. Qarşıdan gələn bələdiyyə seçkiləri də tam azad, şəffaf və demokratik şəraitdə keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu fikir oktyabrın 17-də Ağdam rayonunun ərazisində fəaliyyət göstərən 118 və 119 saylı seçki dairələrində dairə seçki komissiyalarının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün təşkil edilən seçki hüququ üzrə üçgünlük ixtisaslaşdırılmış kursların sonuncu günündə səsləndirilib. Kurslarda 118 saylı Ağdam şəhər seçki dairəsi üzrə 21, 119 saylı Ağdam kənd seçki dairəsi üzrə 42 məntəqə seçki komissiyasının sədri, dairə seçki komissiyalarının üzvləri, habelə işğal altındakı digər rayonlardan olan məntəqə sədrləri iştirak edib.

DSK-ların sədrləri Ramiz Səfərov və Rövşən Şükürov "Bələdiyyə seçkilərinin keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi, bu istiqamətdə MSK-ların fəaliyyətinin təşkili və vəzifələri" mövzusunda seminar keçiriblər. Kursların sonuncu günündə, həmçinin "Seçki subyektləri, seçki hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növləri" mövzusunda məruzə dinlənilib.

İştirakçıların fəallığı şəraitində keçən kursda mövzular ətrafında fikir mübadiləsi aparılıb, dairə seçki komissiyaları üzvlərini və məntəqə seçki komissiyaları sədrlərini maraqlandıran məsələlərə aydınlıq gətirilib.

*Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik.*
*Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq.*
*Xalqın iradəsi əsasında irəli gedəcəyik.*
*Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.*
*Yaşasın müstəqil Azərbaycan Respublikası!*

**İlham ƏLİYEV**



GILAN HOLDING

Azərbaycan xalqını

Dövlət Müstəqilliyi Günü

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və ölkəmizə əbədi müstəqillik arzulayır

## Gənclər və İdman Nazirliyində görüş

Oktyabrın 17-də Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov Litvanın Druskininkay şəhərinin meri Riçardes Malinauskas ilə görüşüb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə hər iki ölkənin idman infrastrukturu, idman qurğularının fəaliyyəti və əhalinin idmana cəlb olunmasında yeni mexanizmlərin işlənilməsi məsələləri müzakirə edilib. Söhbət zamanı şəhərin idman infrastrukturunun inkişafı istiqamətində qarşılıqlı təcrübə mübadiləsinin zəruriliyi vurğulanıb.

## Azərbaycan nümayəndə heyəti Milli Olimpiya Komitələri Assosiasiyasının Baş Assambleyasında iştirak edir



Oktyabrın 17-də Qətərin paytaxtı Dohada Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) Baş Assambleyası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, qurumun baş katibinin müavini Azər Əliyev və marketinq idarəsinin rəisi Mehman Kərimov təmsil edirlər.

Assambleya çərçivəsində MOKA-nın audit və maliyyə, marketinq, atletlər, beynəlxalq əlaqələr və tibbi komissiyalarının iclasları keçirilib, məruzələr dinlənilib. Həmçinin gənclər komissiyasının və icraiyyə şurasının, sonda isə Olimpiya həmrəyliyi komissiyasının iclasları keçiriləcək.

Xatırladaq ki, Doha oktyabrın 12-16-da birinci Dünya Çimərlik Oyunlarına evsahibliyi edib. Bu Oyunlarda 7 idmançı ilə təmsil olunan Azərbaycan 4 gümüş və 1 bürünc medal qazanıb. Çimərlik güləşi yarışlarında Pənah İlyaslı (70 kq) və İbrahim Yusubov (80 kq) gümüş medala sahib olublar. Akuatlon yarışlarında isə Kseniya Levkovskaya ikinci, Rostislav Pevtsov isə üçüncü yeri tutublar. Millimiz qarışıq komanda yarışlarında da ikinci pillədə qərarlaşıb.

## Azərbaycan Milli Kitabxanası ilə Berlin Universiteti arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb

Almaniyanın Frankfurt-Mayn şəhərində keçirilən 71-ci Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində oktyabrın 17-də Azərbaycan Milli Kitabxanası ilə Humboldt adına Berlin Universiteti arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Milli Kitabxanadan AZƏRTAC-a bildiriblər ki, imzalanma mərasimində Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, nazirliyin bir sıra əməkdaşları və Humboldt Universitetinin dosenti Rasim Mirzəyev iştirak ediblər.

Memorandumu Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov və Humboldt adına Berlin Universitetinin Azərbaycan tarixi şöbəsinin müdiri professor Eva-Maria




Aux imzalayıblar. Üç il müddətinə imzalanan bu sənəd tarixi və mədəni biliklərin gücləndirilməsi məqsədilə birgə layihələrin həyata keçirilməsini, qarşılıqlı kitab, informasiya və elektron resursların, çap məhsullarının rəqəmsal variantlarının mübadiləsini, treninqlərin, elmi konfransların keçirilməsini nəzərdə tutur.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev imzalanma mərasimində çıxış edərək Humboldt adına Berlin Universitetinin Azərbaycan tarixi şöbəsinin müdiri professor Eva-Maria Auxa və tədbir iştirakçılarına minnətdarlığını bildirib. Nazir müavini Humboldt adına Berlin Universitetində Azərbaycan tarixi şöbəsinin fəaliyyətini yüksək qiymətləndirib və onun Alman-Azərbaycan dostluq əlaqələrinin daha da möhkəmlənməsində mühüm rol oynayacağına əminliyini ifadə edib.

Sonda Vaqif Əliyev dövlətçiliyimizə, tariximizə və mədəniyyətimizə dair nəşrləri professor Eva-Maria Auxa hədiyyə edib.

## Kənd Təsərrüfatı Nazirliyi yanında Barama İstehsalçıları Şurası yaradılıb

Kənd Təsərrüfatı Nazirliyində Barama İstehsalçıları Şurasının yaradılmasına həsr olunmuş toplantı keçirilib. Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri, ölkənin qabaqcıl kümçüləri və barama qurdunun bəslənməsi üzrə məsləhətçilər iştirak ediblər.

İclasda bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrində böyük nailiyyətlər əldə olunub. Qeyd olunub ki, 2016-cı ildən başlayaraq ölkədə ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb, baramaçılığın yem bazasının bərpa olunması üçün Çin Xalq Respublikasından ölkəmizə 3,5 milyon tut tingi gətirilib, 38 rayonda barama istehsalı ilə məşğul olan kümçülərə pulsuz paylanılıb. Həmçinin vurğulanıb ki, mütəxəssislərin nəzarəti altında 350 hektara yaxın sahədə yeni tut bağları salınıb, tinglərin əkilməsi və budanması qaydaları barədə fermerlərə müvafiq məsləhətlər verilib. Həyata keçirilən tədbirlər nəticəsində ölkədə 2007-ci ildən bəri ilk dəfə olaraq 2016-cı ildə 70,7, 2017-ci ildə 245, 2018-ci ildə 514, 2019-cu ildə 641 ton yaş barama istehsal edilib.

İclasda 11 nəfərdən ibarət Barama İstehsalçıları Şurası yaradılıb. Aqrar Elm və İnnovasiyalar Mərkəzinin direktoru İmran Cümşüdov şuranın sədri seçilib.

*"Azərbaycan"*

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dövlət Müstəqilliyi Günü

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və firavan həyat arzulayır

## Şəmkirdə "KOB Dostu" fəaliyyətə başlayıb

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) növbəti Kiçik və Orta Biznesin Dostu ("KOB Dostu") Şəmkir rayonunda fəaliyyətə başlayıb.

Bununla əlaqədar KOBİA-nın təşkilatçılığı, Şəmkir Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən tədbirdə Şəmkir və ətraf rayonlarda fəaliyyət göstərən sahibkarlar və dövlət qurumlarının nümayəndələri iştirak ediblər. Tədbirdə "KOB Dostu" mexanizmi, mikro, kiçik və orta sahibkarlara "KOB Dostu" tərəfindən göstəriləcək xidmətlər və dəstək barədə məlumat verilib.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, Şəmkir və ətraf rayonlarda fəaliyyət göstərən KOB-lar biznesin qurulması, mövcud sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, eləcə də hüquq və maraqlarının müdafiəsi kimi istiqamətlərdə "KOB Dostu"na müraciət edə bilərlər. "KOB Dostu" tərəfindən sahibkarlara informasiya, məsləhət, təlim-tədris, hüquqi yardım, dövlət qurumları ilə əlaqələndirmə kimi sahələrdə dəstək və xidmətlər göstəriləcəkdir. Sahibkarları "KOB Dostu" ilə sıx əməkdaşlığa dəvət edən Orxan Məmmədov "KOB Dostu" şəbəkəsinin ölkənin digər şəhər və rayonlarını da əhatə edəcəyini diqqətə çatdırıb.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı A.Məmmədov isə rayonun iqtisadi potensialı və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün yaradılmış imkanlar barədə məlumat verib, "KOB Dostu"nun mikro, kiçik və orta biznes subyektlərinə dəstək olacağına əminliyini vurğulayıb.

Sonra "KOB Dostu" mexanizmi barədə təqdimat keçirilib.

Tədbir çərçivəsində həmçinin KOB-lar üçün yeni dövlət dəstəyi mexanizmi olan daxili bazar araşdırmalarına dair maarifləndirici videoçarx nümayiş etdirilib, sahibkarların bu dəstəkdən yararlanmaq üçün KOBİA-ya müraciət edə biləcəkləri diqqətə çatdırılıb.

Tədbirin sonunda sahibkarlar Şəmkir Gənclər Mərkəzində fəaliyyət göstərən "KOB Dostu" ofisi ilə tanış olublar, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, artıq Gəncə-Qazax iqtisadi rayonu üzrə fəaliyyət göstərən KOB dostlarının sayı 2-yə, ölkə üzrə isə 18-ə çatıb.

* * *

Həmin gün həmçinin KOBİA-nın dəstəyi ilə Şəmkir rayonunun Sarıtəpə kəndində yaradılan istixana təsərrüfatı fəaliyyətə başlayıb. "Azaqro" MMC-yə məxsus istixananın yaradılması üçün KOBİA tərəfindən konsaltinq və hüquqi məsləhət xidmətləri, aidiyyəti dövlət qurumları ilə əlaqələndirmə və s. istiqamətlərdə dəstək göstərilib.

İnvestisiya dəyəri 2,3 milyon manat olan layihəyə investisiya təşviqi sənədi verilib. Hollandiyanın "Çerthon" şirkətinin layihəsi üzrə yaradılmış istixanada innovativ texnologiyalar əsasında 1 hektar sahədə gül yetişdirilir. Təsərrüfatın illik istehsal gücü 1,5-2 milyon ədəd güldür. Burada yetişdirilmiş güllər daxili bazarla yanaşı, xarici ölkələrə də ixrac olunacaqdır. İstixana təsərrüfatında 30 yerli sakin işlə təmin edilib.

*"Azərbaycan"*

Yeni nəşrlər

# «Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi»

Görkəmli şəxsiyyət, Ulu Öndər Heydər Əliyev haqqında yüzlərlə bədii əsərlər, sənədli oçerklər, elmi-publisistik məqalələr, kitablar yazılıb. Bu böyük insanın gördüyü işlərin miqyası o qədər genişdir ki, nə qədər çox yazılsa da, onları tam əhatə etmək mümkün deyil.




Elə bunun nəticəsidir ki, yazılan kitablar, əsərlər Ümummilli Liderin titanik fəaliyyətinin müəyyən bir dövrünə, ya da Azərbaycan üçün gördüyü işlərin müəyyən istiqamətinə həsr olunur.

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Şahbaz Muradovun da Ulu Öndərin həyatı və ictimai-siyasi fəaliyyətinin əsas istiqamətlərini əks etdirən yeni kitabı dahi şəxsiyyətin bu gün də uğurla davam etdirilən siyasi kursunun 50 illiyinə həsr olunub.

Müəllifin oxuculara təqdim etdiyi "Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019)" adlı kitabda dahi şəxsiyyətin həyat yolu, tükənməz əməyi, Azərbaycanın sosial-iqtisadi tərəqqisindəki xidməti və onun yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətin uğurlu nəticələri yer alıb.

Professor qeyd edir ki, Ümummilli Liderin Azərbaycanda rəhbərliyə gəldiyi hər iki dövr ölkənin ən ağır və böhranlı vəziyyət keçirdiyi illərə təsadüf edir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi birinci dövr (1969-1982-ci illər) ölkə iqtisadiyyatının bərpası və dinamik inkişaf dövrü, ikinci dövr (1993-2003-cü illər) Azərbaycanın "ölüm, ya olum" dilemmasından xilas edilməsi və onun qurtuluş dövrü kimi tarixin yaddaşına həkk olunub. Heydər Əliyev hər iki halda Azərbaycan xalqının və dövlətinin maraqlarını, mənafeyini müdafiə və təmin edən düzgün siyasi qərarlar qəbul edib həyata keçirməklə onu düşdüyü ağır vəziyyətdən çıxara bilib: "Müstəqil Azərbaycan dövlətinin Memarı, Yeni Azərbaycanın qurucusu olan və xalqından heç nəyi əsirgəməyən bu böyük sözün əsl mənasında ömrünü öz xalqının yolunda şam kimi əritdi" deyə müəllif qeyd edir.

Kitabda həmçinin, xalqın arzusunu reallığı çevirən Ulu Öndərin Azərbaycana rəhbərlik dövrünün təsnifatı da yer alıb. Qeyd edilir ki, dahi şəxsiyyətin ölkəmizə bilavasitə rəhbərlik etdiyi 23 ilin 13 ili (1969-1982-ci illər) Sovet hakimiyyəti dövrünün, 10 ili (1993-2003-cü illər) isə ölkənin müstəqillik illərinin payına düşür: "Dahi liderin ilk dəfə ölkəmizə rəhbərlik etməyə başladığı vaxtdan keçən 50 ilin 16 ili isə (2003-2019) cənab İlham Əliyevin hazırda ölkəmizə rəhbərlik etdiyi dövrdür. Ümumiyyətlə, bu 50 illik dövrün 22 ili (1969-1991-ci illər) Sovet hakimiyyəti illərinin, 28 ili isə müstəqillik dövrünü əhatə edir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövr Azərbaycanda inkişafın yeni mərhələləri - bərpa və dinamik inkişaf mərhələləri, İlham Əliyevin respublikaya rəhbərlik etdiyi dövr isə Azərbaycanda inkişafın keyfiyyətcə yeni mərhələsi kimi tarixə düşüb" deyə müəllif kitabda qeyd edir.

Ümummilli Liderlə bağlı xatirələrini də qələmə alan müəllif yazır ki, böyük şəxsiyyətlə dəfələrlə ünsiyyətdə olması həyatının ən yaddaqalan anlarıdır.

Kitabda müəllifin müxtəlif zamanlarda rəsmi və müstəqil mətbuatda dərc edilən "Türk dünyasının müdrük ağsaqqalı", "Müstəqilliyimiz və milli mənəviyyatımızın qarantı", "Heydər Əliyev təcrübəsinə söykənən iqtisadiyyat", "Azərbaycan Elmlər Akademiyasının inkişafında Heydər Əliyev mərhələsi", "Böyük mütəfəkkir və Azərbaycan elminin hamisi", "Heydər Əliyev müstəqilliyimizin banisi və Azərbaycan xalqının əbədiyaşay lideridir" və s. digər müxtəlif sərlövhəli yazıları da çap edilib.

Onu da qeyd edək ki, Şahbaz Muradovun həm Azərbaycanda, həm də müxtəlif xarici ölkələrin mətbu orqanlarında Ulu Öndərin şəxsiyyəti, apardığı yeganə düzgün siyasət və quruculuq işləri ilə bağlı 500-dən artıq monoqrafiya, kitab və məqalələri çap olunub və geniş oxucular tərəfindən rəğbətlə qarşılanıb.

Müəllifin "Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019)" adlı kitabı Ulu Öndərin siyasi hakimiyyətinin müxtəlif illərində gördüyü əzəmətli işlər, bu kursun layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycanın tərəqqisi və inkişafına yönəlmiş siyasi fəaliyyəti geniş əks olunub.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
Dövlət Müstəqilliyi Günü
münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq,
xoş gələcək arzulayır!




# Mənəvi dəyərlərə qayğı dövlət siyasətinin əsas prioritetlərindəndir

Qədim və zəngin milli-mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması keçmişdə olduğu kimi, bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var.



Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, mədəniyyətinin inkişafına, adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi.

Ulu Öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: *"Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".*

Ailə, insansevərlik, mərhəmət, əxlaq, sülhsevərlik, xeyirxahlıq, vətənpərvərlik, dini dəyərlərə hörmət və s. mənəvi dəyərlər sisteminin əsasını təşkil edir. Bu dəyərlərin qorunması daim dövlətin diqqət mərkəzindədir. Şəhid ailələrinin, valideyn himayəsindən məhrum olmuş uşaqların, aztəminatlı ailələrin, qaçqınların və məcburi köçkünlərin, fiziki imkanları məhdud insanların, müharibə veteranlarının daim dövlətin diqqət və qayğısı ilə əhatə olunması dövlətin sosial, eyni zamanda mənəvi sahədə həyata keçirdiyi siyasətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, islam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində də böyük işlər görülüb. Dövlət başçısı islam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Ölkəmizdə mövcud olan digər dinlərin nümayəndələri də dövlət başçısının diqqət və qayğısından kənarda qalmırlar.

Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Mənəvi dəyərlərin qorunması və təbliği sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə atılan addımlardan biri də Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasıdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondu Prezident cənab İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli fərmanı ilə yaradılmışdır. Nizamnaməyə əsasən, Fondun fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir.

## Dini etiqad sahəsində görülən işlər

Fondun fəaliyyətinin başlıca istiqamətlərindən biri dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə dəstək verməkdir. Belə ki, hər il Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi olaraq məscidlərə təyin edilmiş din xadimlərinə Fond tərəfindən maddi dəstək göstərilir. Bundan əlavə, 2018-ci il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fonduna ayrılmış 400 min manat vəsait hesabına Azərbaycanda fəaliyyət göstərən bir çox dini icmanın maddi-texniki bazası gücləndirilmişdir. Həmçinin bu il cənab Prezidentin müvafiq sərəncamı ilə Fonda ayrılmış 100 min manat vəsait əsasında qeyri-islam dini icmalarına maddi dəstək göstərilmişdir.

Ötən il məscidlərimizdə mənəvi dəyərlərimizin qorunması istiqamətində maarifləndirmə işinin aparılması zamanı innovativ yeniliklərdən istifadənin təmin edilməsi məqsədilə Fond tərəfindən ölkə üzrə 200 məsciddə veb-kamera quraşdırılıb.

Eyni zamanda Fond dini etiqad sahəsində maarifləndirmə işinin aparılması istiqamətində tədbirlər görür, layihələr həyata keçirir. Belə layihələrdən biri Qafqaz Müsəlmanları İdarəsi ilə birgə həyata keçirilən "Vəhdət dəyərimizdir" adlanır. Layihə çərçivəsində ölkəmizin bir bölgəsindən olan din xadimlərinin digər bölgəyə səfəri təşkil olunur. Hər iki bölgənin din xadimləri üçün seminarlar keçirilir, tarixi-dini abidələr ziyarət edilir və birlikdə vəhdət namazı qılınır. Bu il ərzində hər biri 3 gün olmaqla 4 dəfə keçirilən layihənin əsas məqsədi ölkədə mövcud olan tolerant, multikultural mühitin, birgəyaşayış ənənəsinin qorunub-saxlanılması, vəhdətin, birliyin, dostluğun, qardaşlığın möhkəmləndirilməsi olmuşdur.

Həmçinin, Fondun təşkilatçılığı ilə qeyri-islam dini icmaları ilə birlikdə "Tolerant Azərbaycan" layihəsi icra olunub. Layihə çərçivəsində Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Bakı şəhəri Dağ Yəhudiləri dini icması və Alban-Udi Xristian dini icmasının fəaliyyətinə həsr edilmiş konfranslar keçirilib.

Bundan əlavə, Mənəvi Dəyərlərin Təbliği Fondu hər ilə ölkədə fəaliyyət göstərən dini icmalar tərəfindən maarifləndirici layihələrin həyata keçirilməsinə maliyyə dəstəyi göstərir.

## Təhsil sahəsində görülən işlər

Fond mənəvi dəyərlərin təbliği üçün təhsil sahəsində də müxtəlif tədbirlər həyata keçirir, Təhsil Nazirliyi ilə əməkdaşlıq edir. Belə ki, ötən il məktəblilər arasında mənəvi dəyərlərin təbliği işinin gücləndirilməsi məqsədilə Fondun təşkilatçılığı və Bakı şəhəri üzrə Təhsil İdarəsinin dəstəyi ilə şagirdlər üçün "Mənəvi dəyərlərimiz məktəblilərin gözü ilə" mövzusunda inşa-yazı müsabiqəsi elan edilmiş, qaliblərə diplom və mükafat verilmişdir.

Fondun təşkilatçılığı ilə həyata keçirilən daha bir layihə "Dəyərlərimizi öyrənək" adlı intellektual yarışların təşkilidir. Layihə çərçivəsində ölkənin 9 müxtəlif regionunda məktəblərin yuxarı sinif şagirdləri arasında intellektual yarışlar təşkil edilir, milli-mənəvi dəyərlərimiz, Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti və s. mövzularda suallar səsləndirilir. Hal-hazırda davam edən yarışlarda qalib gələn komandalar sonda final mərhələsində mübarizə aparacaq və qaliblər mükafatlandırılacaq.

Bundan əlavə, hər il Fondun təşkilatçılığı ilə "Yay məktəbləri" təşkil olunur. "Yay məktəbləri"ndə müxtəlif universitetlərin tələbələri, o cümlədən şəhid ailələrindən olan tələbələr və Fondun könüllüləri üçün ekspertlərin iştirakı ilə müxtəlif mövzularda seminarlar keçirilir, intellektual yarışlar təşkil olunur, tarixi-mədəni abidələr ziyarət edilir. Tələbələr üçün "Yay məktəbi"nin təşkil edilməsində əsas məqsəd milli-mənəvi dəyərlərimizin inkişafında, maddi-mədəni irsimizin qorunmasında, həmçinin tarixən formalaşmış dəyərlərimizin gələcək nəsillərə ötürülməsində gənclərin, xüsusilə tələbələrin rolunu artırmaqdır.

Mənəvi Dəyərlərin Təbliği Fondu şagirdlər və tələbələrlə maarifləndirici tədbirlər keçirməklə yanaşı, onların maddi cəhətdən dəstəklənməsinə də töhfə verir. Belə ki, ötən il cəbhə bölgəsində 1-ci sinfə gedəcək 100 nəfər uşağa məktəbli forması hədiyyə edilmişdir. Bu il də ənənəyə sadiq qalaraq yeni tədris ilinin başlanması münasibətilə "Öndəki birincilər" layihəsi çərçivəsində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən cəbhə bölgəsində 1-ci sinfə gedəcək 200 nəfər uşağa məktəbli forması hədiyyə edilmişdir.

Eyni zamanda təhsilalanların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə hər tədris ilində Azərbaycan İlahiyyat İnstitutunun aztəminatlı ailələrdən olan tələbələrinə aylıq təqaüd verilir.

Mənəvi Dəyərlərin Təbliği Fondu ölkənin bir sıra universitetləri ilə əməkdaşlıq edir, onlarla birlikdə müxtəlif layihələr həyata keçirir. Belə ki, bu il martın 1-də Mənəvi Dəyərlərin Təbliği Fondu və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Azərbaycanda xeyriyyəçilik ənənələri" adlı layihə keçirilib. Universitet tələbələri arasında xeyriyyəçilik ənənələrinin təbliği məqsədi daşıyan layihə çərçivəsində böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevlə bağlı sosial eksperiment təşkil olunub. Layihə universitet tələbələri tərəfindən böyük maraqla qarşılanıb. Bundan əlavə, aprelin 16-da ADA Universitetində keçirilən "İmadəddin Nəsimiyə həsr olunmuş bir gün" adlı tədbir çərçivəsində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən "Ebru" sərgisi təşkil olunub. Sərgidə ebruçu Sevinc Əliyevanın müəllifi olduğu əsərlər nümayiş etdirilib və onun ustad dərsləri keçirilib. Sərgi universitet tələbələrində böyük maraq yaradıb.

Bu il yanvarın 28-də Azərbaycan Dillər Universitetində Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə "Seyid Yəhya Şirvani Bakuvi və təsəvvüf ənənəsi" mövzusunda birgə panel keçirilib. Tədbirdə yerli və Türkiyədən gələn alimlər iştirak edib.

## Mənəvi dəyərlərin təbliği istiqamətində KİV-lə görülən işlər

Təbliğatın ən effektiv vasitələrindən biri kütləvi informasiya vasitələridir. Bu səbəbdən də Mənəvi Dəyərlərin Təbliği Fondu KİV-lə əməkdaşlığını yüksək səviyyədə qurmağa çalışır.

Ötən ilin oktyabr ayından etibarən hər həftənin cümə axşamı saat 16:05-də ASAN radioda "Mənəvi dəyərlər" radio-verilişi efirə gedir. Verilişlərə qonaq qismində dəvət olunan ekspertlər bir-birindən maraqlı mövzularla dinləyicilərin görüşünə gəlir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyəti müxtəlif saytlar və televiziya kanalları vasitəsi ilə işıqlandırılır. Fond "Azərbaycan" qəzeti ilə də əməkdaşlıq edir. Qəzetdə Fondun fəaliyyəti, həyata keçirdiyi tədbirlər işıqlandırılır, müxtəlif mövzularda məqalələr dərc edilir.

Fondun gündəlik yenilənən internet saytı da mövcuddur. Fond öz fəaliyyətini bu sayt və sosial şəbəkələr vasitəsilə işıqlandırır.

Hər il Fond tərəfindən media nümayəndələri arasında Milli Mətbuat Günü və digər mövzularda məqalə müsabiqələri elan edilir. Ötən il "Media və mənəvi dəyərlər", bu il isə "Milli mətbuat - milli düşüncə" adlanan məqalə müsabiqələri uğurla yekunlaşmışdı. Həmçinin bu il Bakı şəhərində fəaliyyət göstərən bir dini icma Fondun dəstəyi ilə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyi ilə əlaqədar "Şeyxülislam Allahşükür Paşazadə-70" adlı kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında məqalə müsabiqəsi elan etmişdi. Hər üç müsabiqənin qalibləri pul mükafatı və diplomlarla mükafatlandırılıb.

## Maarifləndirmə sahəsində görülən işlər

Fond maarifləndirmə işini bir neçə istiqamətdə həyata keçirir. Bura müxtəlif mövzularda konfransların, seminarların, "dəyirmi masa"ların keçirilməsi, həmçinin kitabların nəşrinə, sosial videoçarxların və sənədli filmlərin hazırlanmasına maddi vəsaitin ayrılması daxildir.

Ötən il Fondun dəstəyi ilə 51 müxtəlif adda kitab nəşr edilmiş, 3 sənədli film, 5 sosial videoçarx hazırlanmışdır. Bu il üçün isə 43 adda kitabın nəşri, 6 sənədli film və 6 sosial videoçarxın hazırlanması nəzərdə tutulmuşdur. Bu istiqamətdə işlər növbəti illərdə də davam etdiriləcək.

Bundan əlavə, dövlət-din münasibətləri, mənəvi dəyərlərin təbliği, eləcə də dini radikalizm, ekstremizm və fanatizmlə mübarizə sahəsində vətəndaşların maarifləndirilməsini təmin etmək məqsədilə Fondun "Dini sorğu mərkəzi" yaradılıb.

Maarifləndirmə tədbirləri daha çox ailə, mənəviyyat, milli kimlik, tolerantlıq, azərbaycançılıq, vətənpərvərlik, milli-mənəvi dəyərlərimiz və s. mövzuları əhatə edir. Ötən ildən bu günədək ölkənin müxtəlif bölgələrində 100-ə yaxın konfrans, seminar və "dəyirmi masa"lar təşkil edilmişdir. Bu tədbirlərdə mövzuya uyğun olaraq ekspertlərin mühazirələri dinlənilir, Fondun dəstəyi ilə nəşr edilmiş kitablar paylanılır, filmlər və sosial videoçarxlar nümayiş olunur.

Fond tərəfindən vətənpərvərliyin təbliği istiqamətində görülən işlərdən biri www.milliqahramanlar.az saytının yenidən qurulmasıdır. Belə ki, bu il adıçəkilən sayt Fondun maliyyə dəstəyi ilə ən son standartlara uyğun olaraq yenidən qurulmuş və 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə "İstiqlal keşikçiləri" adlı konfransda təqdimatı keçirilmişdir. Saytda Azərbaycanın bütün Milli qəhrəmanları haqqında ətraflı məlumatlar yer almışdır.

Bu il yanvarın 29-da Şamaxı şəhərində Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı, Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Seyid Yəhya Şirvani Bakuvi və təsəvvüf ənənəsi" mövzusunda birgə panel keçirilib.

Hal-hazırda davam edən maarifləndirici layihələrdən biri "Ziyalılarımızdan öyrənək" adlanır. Layihə çərçivəsində Azərbaycanın tanınmış ziyalılarının ölkənin müxtəlif regionlarında gənclərlə görüşləri təşkil edilir.

Bu il Fond ölkə xaricində də maarifləndirmə istiqamətində bir sıra tədbirlər həyata keçirib. Belə ki, 7-10 may tarixlərində Azərbaycan Respublikasının Gürcüstan Respublikasındakı səfirliyi və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə Gürcüstanda azərbaycanlıların yaşadığı Dmanisi, Bolnisi, Marneuli, Qardabani, Saqareco, Laqodexi rayonlarında və paytaxt Tbilisidə "Ulu Öndər Heydər Əliyev və mənəvi dəyərlər" mövzusunda tədbirlər keçirilmişdir. Bu tədbirlərdə Fond tərəfindən nəşr edilmiş müxtəlif mövzularda kitablar Gürcüstanda yaşayan soydaşlarımıza hədiyyə edilmişdir. Gələcəkdə də xarici ölkələrdə yaşayan soydaşlarımızla belə tədbirlərin keçirilməsi planlaşdırılır.

Həmçinin bu il iyunun 14-də Bakı şəhərində Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Günü münasibətilə "Xilaskar" adlı konfrans keçirilib.

## Xeyriyyəçilik sahəsində görülən işlər

Mənəvi Dəyərlərin Təbliği Fondu mütəmadi olaraq hər il Ramazan və Qurban bayramlarında, eləcə də digər günlərdə şəhid ailələrinə, müharibə veteranlarına və aztəminatlı ailələrə ərzaq yardımı edir, valideyn himayəsindən məhrum olmuş uşaqların məskunlaşdığı uşaq evlərini ziyarət edərək onlara müxtəlif hədiyyələr verir, Ramazan ayında şəhid ailələri, qazilər və aztəminatlı ailələrin iştirakı ilə iftar süfrələri təşkil edir.

Bundan əlavə, oktyabrın 25-də Bakı şəhərində "Sevgi hüdud tanımır" adlı konfransın keçirilməsi və tədbir çərçivəsində ümumilikdə 100 nəfər yardıma ehtiyacı olan əlil və aztəminatlı ailələrə ərzaq yardımının göstərilməsi nəzərdə tutulur.

Hər il mütəmadi olaraq Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən uşaq evləri ziyarət edilir. Ənənəvi olaraq bu il də "Bir uşaq-bir ümid" layihəsi çərçivəsində Bakı, Gəncə, Şəki və Lənkəran şəhərlərində yerləşən uşaq evləri ziyarət edilmiş, uşaqlara müxtəlif hədiyyələr verilmişdir.

Bu il fevralın 22-də Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə "Ədalət harayımız - Xocalı soyqırımı" konfransı çərçivəsində Xocalıdan olan şəhid ailələrinin və aztəminatlı ailələrin nümayəndələrinə ərzaq yardımı paylanılıb.

Mənəvi Dəyərlərin Təbliği Fondu müxtəlif xeyriyyə tədbirləri həyata keçirməklə yanaşı, həmçinin cəmiyyətdə xeyriyyəçilik ənənələrinin yaşadılması, yaxşı işlər görməyin təbliği və təşviqi istiqamətində də layihələr icra edir. Belə layihələrdən biri "Yaxşılıq unudulmur" adlanır. Müsabiqə formatında olan layihə çərçivəsində insanlar şahidi olduqları yaxşılıqların müəllifləri barəsində Mənəvi Dəyərlərin Təbliği Fonduna məlumat verib və həmin insanlar Fond tərəfindən mükafatlandırılıb.

Qeyd edilənlər Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən maarifçilik, təhsil, xeyriyyəçilik, dini etiqad sahəsində 2 il ərzində görülən işlərin xülasəsidir. Qarşıya daha geniş fəaliyyət sahələrini əhatə edəcək layihələrin həyata keçirilməsi ilə bağlı planlar qoyulmuşdur. Fond bundan sonra da ona verilən imkanlar və səlahiyyətlər çərçivəsində mənəvi dəyərlərimizin qorunması, təbliği və inkişafı istiqamətində fəaliyyətini davam etdirərək bu işə öz töhfəsini verməyə çalışacaqdır.

***Mehman İSMAYILOV,***
***Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru***

## *Çingiz ABDULLAYEV:* "650 min ağac əkmək gözəl təşəbbüsdür və ölkəmizin bütün vətəndaşları bu ideyanı dəstəkləməlidirlər"

"Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 650 min ağac əkilməsi barədə təşəbbüsü özlüyündə gözəl ideyadır.

Bu təşəbbüs həm də ona görə dərin məna kəsb edir ki, o, böyük Azərbaycan şairi Nəsiminin 650 illiyinə həsr edilib. Övladlarımız bilməlidirlər ki, ölkəmizin tarixində belə bir ŞAİR olub: o, canından keçməyə razı olub, lakin dünyaya baxışından imtina etməyib. Əminəm ki, ölkəmizin milyonlarla vətəndaşı bu faydalı və gərəkli təşəbbüsü dəstəkləyəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi əkmək üçün tingləri həm idarə və təşkilatlara, həm də arzu edən hər kəsə pulsuz paylayacaq. Ona görə də mən hər kəsi bu nəcib təşəbbüsün həyata keçirilməsində fəal iştirak etməyə çağırıram".

Dünya şöhrətli yazıçı Çingiz Abdullayev bu fikirləri böyük Azərbaycan şairi Nəsiminin 650 illik yubileyi şərəfinə Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən irəli sürülmüş 650 min ağac əkmək təşəbbüsünü şərh edərək söyləyib.

Xalq yazıçısı deyib: "Təyyarə ilə bircə dəfə də olsa Bakıya gələn hər kəs mənim sevimli şəhərimə yaxınlaşarkən səmadan necə mənzərə açıldığını bilir. Bizdə yaşıllıqlar çox cüzidir. Üstəlik, bəzi yaramazlar şəxsi mənfəət naminə ağacları kəsirlər. Onlar başa düşmürlər və ya başa düşmək istəmirlər ki, söhbət övladlarımızın və nəvələrimizin gələcəyindən, milyonlarla insanın yaşadığı meqapolisin ekologiyasından gedir. İndi məhz elə vəziyyət yaranıb ki, siyasi baxışlarından və ya əqidəsindən asılı olmayaraq hamı sıx birləşə bilər. Bu, çox gözəl ideyadır və ölkəmizin bütün vətəndaşları - Prezidentdən başlamış məktəblilərə və tələbələrə qədər hər kəs bu ideyanı dəstəkləməlidir. Belə bir məsəl var, deyərlər, hər bir kişi oğul tərbiyə etməli, ev tikməli və ağac əkməlidir. Mən bunların hamısını etmişəm, lakin bu gözəl ideyaya qoşulmağa və onu dəstəkləməyə hazıram. Bu, ölkəmiz üçün bizim edə biləcəyimiz işlərin bəlkə də ən yaxşısıdır".

18 OKTYABR
DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ



Dövlət Müstəqilliyi Günü münasibətilə dost və qardaş Azərbaycan xalqını ürəkdən təbrik edir, sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq.

TEKFEN
TEKFEN İNŞAAT

## *650 min ağac əkək:* Ağdaşda ağac əkiləcək ərazilər müəyyənləşdirilib, çalalar qazılır

Xalqımızın ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü respublikamızın bütün bölgələrində, o cümlədən Ağdaş rayonunda da böyük rəğbətlə qarşılanıb və hazırda hər yerdə olduğu kimi, burada da bu təşəbbüsə ciddi hazırlıq işləri görülür.

Ağdaş Rayon İcra Hakimiyyəti başçısı aparatının sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Xanmusa Əhmədov AZƏRTAC-a bildirib ki, rayonumuzun ümumi mənzərəsinə xüsusi gözəllik gətirəcək bu xeyirxah təşəbbüslə əlaqədar ərazilər müəyyənləşdirilib, sahələr təmizlənir, çalalar qazılır və 4500-dən çox ağac əkilməsi planlaşdırılır.

Noyabrda keçiriləcək ağacəkmə kampaniyasına ağdaşlı gənclər də səylə hazırlaşırlar. YAP rayon təşkilatı Gənclər Birliyinin sədri Teymur Əmirli deyib: "İmadəddin Nəsiminin 650 illiyi münasibətilə Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan edilməsi, Birinci vitse-prezident Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü, əlbəttə, dahi şairimizin xatirəsinin yad edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Heç şübhə yoxdur ki, Yer kürəsinin, nəticə etibarilə gələcək nəsillərin sabahını düşünən hər kəs, bu təşəbbüsə qoşulacaq".

# Ermənistan ordusu 9 ayda 39 hərbçi itirib

### İşğalçı ölkənin silahlı qüvvələrində özbaşınalıq və böyük xaos hökm sürür

Ermənistanda bütün sahələr üzrə özünü getdikcə daha qabarıq formada büruzə verən tənəzzül Paşinyan hakimiyyətə gəldikdən sonra bu ölkənin ordusunda da acınacaqlı durumun yaranması ilə müşayiət olunur. Orduda korrupsiya, rüşvətxorluq, özbaşınalıq geniş vüsət alıb. Ümumiyyətlə, cəmiyyətdə olan neqativ tendensiyalar ordunu da bürüyüb. Erməni ordusu maddi-texniki, şəxsi heyətlə təminat baxımından əvvəlki dövrlərlə müqayisədə indi daha ciddi çətinliklər yaşayır.

İndi Ermənistanda belə bir fikir hakimdir ki, orduda zabitlər əsgərlərə vətənin müdafiəçiləri kimi deyil, şəxsi varlanmalarını təmin edən obyekt kimi baxırlar. O da vurğulanır ki, Ermənistan Müdafiə Nazirliyi heç də bütün insidentlər haqda məlumat vermir, bəzi hadisələr gizli qalır.

Paşinyan hakimiyyəti üçün ciddi problemə çevrilən məsələlərdən biri də qeyri-döyüş şəraitində həyatını itirən əsgərlərlə bağlıdır. Belə əsgərlərin valideynləri hakimiyyətin bu məsələyə etinasızlığından cana doyduqlarını bildirir və ölkə rəhbərliyinin indiyə qədər onları aldatdıqlarını bəyan edirlər.

Təhlükəsizlik sisteminin ekspertləri işğalçı ölkənin silahlı qüvvələrində vəziyyətin həqiqətən də acınacaqlı olduğunu etiraf edirlər. Onlar hesab edirlər ki, islahatlar aparılmasa, onsuz da pis vəziyyətdə olan Ermənistan ordusu daha sürətlə tənəzzülə uğrayacaq. Hazırda isə işğalçı ölkənin silahlı qüvvələrində hökm sürən anarxiya onu uçuruma aparır. Bu gün Ermənistan ordusunda adi hala çevrilən fərarilik, ölüm, təcavüz, korrupsiya, intihar faktları onun nüfuzuna birbaşa təsirini göstərir.

Bu günlərdə Ermənistan baş prokurorluğu məlumat verib ki, cari ilin 9 ayı ərzində Ermənistan silahlı qüvvələrinin 39 hərbçisi ölüb. İşğalçı ölkədə 16 hərbçi xidmət zamanı, 23 hərbi qulluqçu isə qeyri-müəyyən şəraitdə dünyasını dəyişib. Belə faktların çoxluğu fonunda aydın görünür ki, ölkədə ordunun çöküşü əvvəlki dinamika ilə davam edir.

Bunu hətta müvafiq rəsmi dairələr də təsdiqləyir. Ermənistanın hərbi prokuroru Vaqe Arutyunyan 2018-ci ildə hüquq mühafizə orqanlarının silahlı qüvvələrdə cinayətkarlıqla mübarizə üzrə hesabatını təqdim edərkən qeyd olunan xüsusda çox maraqlı məqamlar açıqlamışdı. Belə ki, ötən il Ermənistan silahlı qüvvələrində 3525 fövqəladə hadisə qeydə alınmışdı ki, onlardan 2385-i (66,9 faizi) qanun pozuntusu, 1140-ı (36,2 faizi) isə cinayətdir.

Ermənistan mediası isə xidmət zamanı intihar edən, qaçan hərbçilərin ailələrinə təzyiq olunduğunu bildirir. Ölənlərə aid qeydiyyat kitabçalarının, şəxsi gündəliklərin yoxa çıxması da adi hala çevrilib. Hesab edilir ki, hakimiyyəti bu addımı atmağa Ermənistan ordusu haqqında bir çox həqiqətlərin üzə çıxa bilmək xofu vadar edir. Rəhbərlik orduya korrupsiya mənbəyi kimi baxdığından hərbi qulluqçuların nizam-intizamı, mənəvi-psixoloji, maddi və fiziki vəziyyəti ötən illərə nisbətən daha da pisləşir.

Döyüş itkilərindən əlavə, Ermənistan ordusunda baş verən fərarilik, ölüm, döyülmə, rüşvət, korrupsiya, intihar, təcavüz və digər nizamnamədənkənar halların sayı dəfələrlə artıb. Əvvəlki kimi, erməni ordusu daxildə çox ciddi qütbləşməyə məruzdur, qarabağlı-yerevanlı məsələsi bu silahlı qüvvələrin durumunu daha da ağırlaşdırır. Komandirlər tərəfindən hərbi hissələrdən hərbi qulluqçuların qanunsuz yolla pul müqabilində ay ərzində hərbi hissədən kənara buraxılma halları hələ də davam etməkdədir.

Müstəqil rəsmi mənbələr də cinayət və ölüm hallarının artması, korrupsiyanın səviyyəsinin yüksək olması qənaətindədirlər. Məsələn, bir müddət əvvəl Ermənistan xüsusi istintaq xidməti sabiq müdafiə nazirinin müavini, "Yerkrapa" könüllü döyüşçülər təşkilatının rəhbəri general Manvel Qriqoryanın milyonlarla dollar mənimsədiyini üzə çıxarmışdı. Açılan cinayət işi çərçivəsində aparılan ilkin istintaq nəticəsində əldə olunan faktlar üzrə Qriqoryan külli miqdarda silah və döyüş sursatının qanunsuz saxlanılmasında, 1 milyard 228 milyon dram məbləğində vergidən yayınmada, 101 milyon 232 min dəyərində əmlakın və dövlətin 1 milyard 225 milyon dram vəsaitini qanunsuz şəkildə mənimsəməkdə, həmçinin şantaj yolu ilə 37 milyon 101 min dəyərində mülkiyyətə sahiblənməkdə ittiham olunur.

Bütün bunlar təsdiq edir ki, işğalçı ölkənin ordusunun çöküşü sürətlə davam edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




## *DİN və Baş Prokurorluq:* "İctimai asayişin pozulmasına yönələn qanunsuz hərəkətlərin qarşısı qətiyyətlə alınacaq"

Özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran quruma daxil olan partiya və birliklər, eləcə də özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri kimi təqdim edən Əli Kərimli, həmin qurumun rəhbərliyində təmsil olunan şəxslər, habelə əvvəllər müxtəlif cinayətlər törətməklə saxta yollarla xarici ölkələrdə sığınacaq almış sosial şəbəkə istifadəçiləri tərəfindən son günlər sosial şəbəkələrdə oktyabrın 19-da "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olaraq Bakı Metropoliteninin "28 May" stansiyasının önündə qanunsuz aksiya keçirilməsinə çağırışlar edilib.

Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, Milli Şuranın oktyabrın 19-da saat 15-dən 17-dək mitinq keçirilməsi ilə bağlı müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılıb. "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsi qadağan edildiyindən şəhər icra hakimiyyəti tərəfindən mitinqin qeyd olunan vaxtda Bakı şəhəri Lökbatan qəsəbəsi 28 May küçəsindəki "Neftçi" idman klubunun Qaradağ təlim-idman bazasında keçirilməsi təklif olunub. Lakin buna baxmayaraq, təşkilatçılar həmin vaxtda qanunla qadağan edilmiş yerdə, yəni metropolitenin qarşısında razılaşdırılmamış qanunsuz aksiya keçirəcəkləri barədə məlumatlar paylaşıblar.

Xatırladaq ki, Milli Şuranın oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyəti ilə Azərbaycan Dövlət İqtisad Universitetinin inzibati binalarının arasında yerləşən ərazidə 50 nəfərin iştirakı ilə piket keçirilməsinin Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmasına baxmayaraq, onların faktiki olaraq küçə yürüşü keçirməyə cəhd etmələri nəqliyyatın hərəkətinin iflic vəziyyətinə düşməsinə, ətrafdakı insanların haqlı narazılığına və nəticə etibarilə ictimai asayişin pozulmasına səbəb olub. Lakin buna baxmayaraq, həmin hüquqazidd əməllərin qarşısı alınıb və qanunun tələblərini pozan şəxslər barəsində müvafiq tədbirlər görülüb.

Bütün bunlar AXCP rəhbərliyinin və həmin qanunsuz aksiyanın təşkilatçılarının əsas məqsədinin toplantı keçirmək deyil, əhalinin kütləvi toplaşdığı və qanunla qadağan edilmiş yerlərdə ictimai asayişi pozmaq olduğunu göstərir.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq bəyan edir ki, qanunsuz kütləvi aksiyaya çağırış edən AXCP rəhbərliyi, həmin aksiyanın təşkilatçıları və iştirakçıları tərəfindən Bakı Şəhər İcra Hakimiyyətinin təklif etdiyi yerdən kənar ictimai qaydanı pozmaqda və hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaqda ifadə olunan, əhalinin rahatlığını, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini və nəqliyyatın işini pozan qanunsuz hərəkətlərə yol veriləcəyi təqdirdə bütün məsuliyyət onların üzərinə düşəcək. Bu səbəbdən də həmin şəxslərə bir daha xəbərdarlıq edilir ki, qanunsuz əməllərin qarşısı hüquq mühafizə orqanları tərəfindən qətiyyətlə alınacaq və qanunun tələblərini pozan şəxslər barəsində, cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş ən ciddi tədbirlər görüləcək.

AZPETROL

“Azpetrol” şirkətinin rəhbərliyi və kollektivi
*Azərbaycan xalqını*
**18 Oktyabr - Dövlət Müstəqilliyi Günü**
*münasibətilə ürəkdən təbrik edir.*
*Şirkət xalqımıza sülh, əmin-amanlıq, birlik, firavan həyat və xoş gələcək arzulayır*




*Bayramınız mübarək!*

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Azərbaycan xalqını*




Coca-Cola
*şirkəti*
*Azərbaycan xalqını*
**18 Oktyabr - Dövlət Müstəqilliyi Günü**
münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və firavanlıq arzulayır

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tenderə dəvət edir*

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi üçün idarə xərcləri maddəsi üzrə mallarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 250 (iki yüz əlli) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 06.11.2019-cu il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 18.11.2019-cu il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.11.2019-cu il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri haqqında Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Protez-Ortopedik Bərpa Mərkəzi dəri və yapışdırıcı vasitələrin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar **(012) 376-80-11** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 24.10.2019-cu il saat 17:00-dək qəbul olunur. Zərflərin açılışı 25.10.2019-cu il saat 15:00-dəkdir.

Faks nömrəsi: (012) 376-80-11.

Ünvan: Əhmədli qəsəbəsi, S.Ə.Şirvani, 3.

***Tender komissiyası***

# Ermənistan silahlı qüvvələrinin bölmələri minaatanlardan istifadə etməklə atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatandan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Tovuz rayonunun Əlibəyli kəndində, Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Cəvahirli, Acarlı, Mərzili, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti Maşın - mexanizmlərinin və elektromobillərin ehtiyat hissələrinin satın alınması üçün

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: Maşın-mexanizmlərinin və elektromobillərin ehtiyat hissələrinin satın alınması.**

Müqavilənin icra müddəti **20 dekabr 2019-cu il** tarixinə kimi müəyyən edilir.

Tender iştirakçıları https://etender.gov.az/ -dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT: AİİBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **07 noyabr 2019-cu il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **18 noyabr 2019-cu il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **19 noyabr 2019-cu il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

### *açıq tenderə dəvət edir*

- Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi üçün dəftərxana və təsərrüfat mallarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 300 (üç yüz) manat**

Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **05.11.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **13.11.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **14.11.2019-cu il saat saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin LOT-1: Maşın-mexanizmlərinin və elektromobillərin ehtiyat hissələrinin satın alınması üzrə 15 oktyabr 2019-cu il saat 10:00-da keçirilməsi nəzərdə tutulan tender iddiaçıların tender təklifi və tender təklifinin təminatı verilməməsi səbəbindən baş tutmamış və ləğv olunmuş hesab olunur.

**Əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 29 avqust 2019-cu il tarixdə dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 03 sentyabr 2019-cu il tarixdə keçirilmiş kotirovka sorğusu metodu ilə 282100 - "Sair xərclər" maddəsi üzrə 13 sentyabr tarixində Birləşmiş Millətlər Təşkilatının (BMT) Əməkçi Miqrantların Hüquqlarının Müdafiəsi Komitəsinin Büro üzvlərinin Bakıya səfəri zamanı keçiriləcək tədbirin təşkili sahəsi üzrə xidmətlərin satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "Kəmər-Qaya" MMC elan olunmuş və 06 sentyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 03 oktyabr 2019-cu il tarixdə dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 09 oktyabr 2019-cu il tarixdə keçirilmiş təkliflər sorğusu metodu ilə 282100 - "Sair xərclər" maddəsi üzrə 14 oktyabr tarixində MDB iştirakçı dövlətlərinin əmək, məşğulluq və əhalinin sosial müdafiəsi üzrə Məşvərət Şurasının keçiriləcək XXXII iclasının təşkili sahəsi üzrə iş və xidmətlərin satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "Kəmər-Qaya" MMC elan olunmuş və 11 oktyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 29 avqust 2019-cu il tarixdə dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, Qeyri-formal məşğulluğun qarşısının alınması sahəsi üzrə xidmətlərin satın alınması məqsədilə keçirilmiş açıq tender prosedurunda iştirak edən iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" qanunun 50-4.2 maddəsinə əsasən tender proseduru ləğv edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

### Azərbaycan Dövlət Pedaqoji Universiteti inzibati binanın təmir-tikinti işlərinin aparılması məqsədilə layihə-smeta sənədlərinin hazırlanması işlərini kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 493-00-26 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 21.10.2019-cu il saat 17:00-dək qəbul olunur.
Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli, 68.

***Tender komissiyası***

## BİLDİRİŞ

24 iyul 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan sosial xidmət müəssisələrinə "Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin" satın alınması üzrə keçirilmiş açıq tenderdə "Nur-SS" MMC qalib müəyyən edilmiş və 16.10.2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

24 iyul 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanlarına "Digər maşın və avadanlıqların" satın alınması üzrə keçirilmiş açıq tenderdə "Lotus Co" MMC qalib müəyyən edilmiş və 16.10.2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 06 iyul 2019-cu il və 19 iyul 2019-cu il tarixdə dərc edilmiş elanlar ilə əlaqədar bildiririk ki, 22 avqust 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə əhalinin özünüməşğulluğunun təmin edilməsi üçün zəruri olan əmlakın (inventarların, maşın və avadanlıqların) satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "AZNEST" QSC elan olunmuş və 30 sentyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Vətəndaşların qəbulu keçirilib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən regionlarda vətəndaşların qəbulu keçirilir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov oktyabrın 17-də Sumqayıt şəhərində vətəndaşları qəbul edib.

Daha sonra Arzu Rəhimov xidmətin Sumqayıt şəhər idarəsinin inzibati binasında Sumqayıt, eləcə də Abşeron, Qubadlı, Şuşa, Xocavənd, Cəbrayıl, Zəngilan, Laçın, Xocalı şəhər və rayonlarından olan sakinləri qəbul edib.

AZƏRTAC xəbər verir ki, iyirmi üç nəfərin iştirak etdiyi qəbulda Xidmətin müvafiq şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbulla bağlı müraciətlər üstünlük təşkil edib. Vətəndaşlar, həmçinin hərbi xidmətə çağırılan övladlarının ailə vəziyyəti ilə əlaqədar olaraq yaşadıqları əraziyə yaxın hərbi hissələrdə qulluq keçmələri, səhhətində olan problemlərlə və digər məsələlərlə də bağlı müraciətlər ediblər.

Xidmətin rəisi hər bir vətəndaşı fərdi qəbul edərək diqqətlə dinləyib, onları narahat edən məsələləri araşdırıb, tövsiyə və məsləhətlərini verib.

Qaldırılan məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verilib, bəziləri yerindəcə həll olunub.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatları Şəmsəddin Hacıyev və Hadi Rəcəbli Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Flora Qasımova Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Nəsib Məhəməliyev Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Daxili İşlər naziri Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Slavyan Universitetinin rektoru, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Əməkdar elm xadimi, akademik
**VASİM MƏMMƏDƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov və nazirliyin kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tərtərdən Müstəqim Məmmədov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əliyev Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ombudsman Elmira Süleymanova Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Lənkərandan Taleh Qaraşov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqı Memarlar İttifaqının İdarə Heyətinin katibi Rüfət Ağazadəyə anası
**ZEMFİRA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İradə Gülməmmədova və Abşeron Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov və akademiyanın kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Günay Bank ASC-nin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, akademik
**VASİM MƏMMƏDƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Günay Bank ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8959
Sifariş 3450
Qiyməti 40 qəpik